Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 145 (7872) ÇƏRŞƏNBƏ, 4 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

## Prezident vəziyyətə nəzarəti öz üzərinə götürdü

### Prezidentin Mətbuat xidmətinin məlumatı

İyulun 2-dən 3-nə keçən gecə hava şəraitinin kəskin dərəcədə dəyişməsi, temperaturun yüksək həddə çatması nəticəsində əhalinin elektrik enerjisindən həddən artıq istifadə etməsi ilə əlaqədar Mingəçevir İstilik Elektrik Stansiyasının (İES) yarımstansiyasında cərəyan transformatoru sıradan çıxmışdır. Yarımstansiyada dərhal təmir bərpa işlərinə başlanmışdır.

Vəziyyət Azərbaycan Respublikası Prezidentinin daim nəzarətindədir.

## "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində cərəyan transformatorunda qəza baş vermişdir. Bununla əlaqədar Bakı və Gəncə şəhərləri də daxil olmaqla respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmışdır. Təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi nəticəsində bir neçə saatdan sonra elektrik enerjisi ilə təminat əsasən bərpa olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikasının energetika naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikasının daxili işlər naziri

Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Azərbaycan Respublikasının baş prokuroru

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı

Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun direktoru.

2. Dövlət Komissiyası:

2.1. hadisənin baş verməsi səbəblərini araşdırsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirsin və həyata keçirsin;

2.3. görülmüş işlər haqqında Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat versin.

3. Azərbaycan Respublikasının Baş Prokurorluğu baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2018-ci il*

## İsti bu dəfə işığı vurdu

### Amma görülən operativ tədbirlər nəticəsində ölkə işıqsız çox qalmadı

Proqnozlar doğrulur. Hələ neçə ay öncə sinoptiklər bu yayın həddən artıq isti keçəcəyini söyləmişdilər. Necə demişdilərsə, elə də oldu. Yayın girməsi ilə ölkə ərazisinə anomal istilər düşdü. Bütün regionlarda, o cümlədən yayı adətən külək hesabına digər bölgələrdən nisbətən sərin keçən Abşeron yarımadasında termometrlər rekord vurmağa başladılar.

Paytaxt sakinləri və qonaqları iyulun 1-də son 120 ilin ən isti gününü yaşadılar. Həmin gün Bakıda havanın hərarəti 43-44 dərəcəyədək yüksəlmişdi. Növbəti rekord isə dünən - iyulun 3-də qeydə alındı. Ölkənin aran zonasında 46 dərəcə istilik qeydə alındı.

Bu, hələ başlanğıcdır. Yay təzə başlayıb və ilk ayı heç də sərin keçməyən payıza təxminən 3 ay qalıb. Amma bir iş də var ki, Azərbaycan bir cənub ölkəsidir və biz qızmar havalara həm öyrənmişik, həm də onu qarşılamağa hazır oluruq.

Ardı 2-ci səh.

## Azərbaycan Ermənistanın təcridi siyasətini gücləndirir

**Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ilə bağlı Bakıda keçirilən hərbi parad ordu quruculuğu prosesində dövlətin, onun lideri İlham Əliyevin həyata keçirdiyi siyasətin istənilən uğurlu nəticəni verməsinin növbəti təzahürü oldu.**



Silahlı Qüvvələrin ən müasir silah-sursat və hərbi texnika ilə təmin edilməsi kimi vəzifənin öhdəsindən layiqincə gəlinməsinə bu paradın fonunda bütün dünya yenidən şahidlik etdi. Bu baxımdan, hərbi paradda nümayiş olunan ən müasir hücum və müdafiə sistemləri həm də Azərbaycanın iqtisadi gücünün, potensialının göstəricisi kimi qiymətləndirilir.

Azərbaycan Silahlı Qüvvələrinin arsenalında dünyanın müxtəlif ölkələrində istehsal olunan hərbi texnika var. Hərbi paradın önə çıxardığı daha bir əhəmiyyətli məqamın Azərbaycanın hərbi-sənaye kompleksi, burada istehsal olunan silah-sursat və hərbi texnikanın yüksək keyfiyyət göstəriciləri ilə bağlı oldu. Bütün bunlar Prezident İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının bariz sübutudur.

Ardı 3-cü səh.

## Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Regional çağırışlara və terrorizmə qarşı mübarizədə, təhlükəsizlik məsələlərində, eləcə də iqtisadi sahədə ölkələrimiz yaxından və səmərəli əməkdaşlıq edirlər.

Enerji sahəsindəki əməkdaşlığımız xüsusilə əhəmiyyətlidir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən neft-qaz layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi məmnunluq doğurur. Bu yaxınlarda istismara verdiyimiz "Cənub qaz dəhlizi" isə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir.

Bununla yanaşı, ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamışdır. Biz Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunacağı, qaçqın və məcburi köçkünlərimizin doğma yurd-yuvalarına qayıdacağı günü səbirsizliklə gözləyirik. Buna görə də münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2018-ci il*



## Sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı

Regionun lider dövləti olan Azərbaycan öz siyasi dəst-xətti, inkişafı və beynəlxalq nüfuzu ilə bu statusu layiqincə daşıdığını təsdiq edib. Bu gün Cənubi Qafqazı əhatə edən beynəlxalq layihələri Bakının maraqlarını nəzərə almadan həyata keçirmək mümkün deyil. Ən mühümü odur ki, regiondakı xarici tərəfdaşların da yaxından qatıldığı layihələrin təşəbbüskarı elə Azərbaycanın özüdür. Respublikamızla hesablaşır, məsləhətləşir, mövqeyini bölüşürlər.

### Dünyada qəbul olunan dialoq platforması

Azərbaycan həm də əməkdaşlıq məkanıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və cəsarətli siyasət respublikamızı qlobal humanitar, mədəniyyətlər və dinlərarası, o cümlədən hərbi-siyasi məsələlərin müzakirə olunduğu platformaya çevirib. 2016-cı ildə V Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: "Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq"

Düzgün iqtisadi siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, dünyanın müxtəlif qütblərində dayanan dövlətlərlə yaxşı münasibətlər, beynəlxalq təşəbbüslərimiz bu gün ölkəmizi dünyada yalnız sabitlik və inkişaf məkanı deyil, həm də əməkdaşlıq ünvanı kimi təqdim edir. Azərbaycanın dünyada ən etibarlı sülh və tərəfdaşlıq platforması olması artıq beynəlxalq səviyyədə qəbul olunan reallıqdır. Respublikamız bu sahədə daim öz təcrübəsini nümayiş etdirməklə və beynəlxalq səviyyədə mükəmməl nümunələr ortaya qoymaqla birləşdirici və barışdırıcı faktora çevrilib. Bu mənada respublikamızın müstəqillik illərində qazandığı mühüm nailiyyətlərdən biri də müharibələrə, humanitar böhranlara qarşı birgə beynəlxalq mübarizənin təşkili, bu istiqamətdə mövcud olan və ya yarana biləcək problemlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsi ilə bağlı qlobal fəaliyyətin istinad nöqtəsinə çevrilməsidir.

İyunun 28-də Bakıda Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısının keçirilməsi ölkəmizin beynəlxalq təhlükəsizlik məsələlərində fəal iştirakının bariz nümunəsidir. Qeyd edək ki, bir vaxtlar firavanlığın, sivil həyatın hökm sürdüyü Əfqanıstan uzun illərdir dünyanın ən ağrılı problemlərini yaşayan ölkələrindən biridir. 1979-cu ildən bəri ölkədə güllə səsləri kəsilmək bilmir. Hərbi əməliyyatların və vətəndaş müharibəsinin gedişində bir çox müəssisə və idarələr dağıdılmış, ölkənin ayrı-ayrı hissələri arasında və digər dövlətlərlə nəqliyyat və ticarət əlaqələri pozulmuşdur. Ölkə iqtisadiyyatı tənəzzülə uğramışdır. Bütün bunların ağır yükü və əzab-əziyyəti isə sadə əfqan xalqının üzərinə düşmüşdür. Əfqanıstan əhalisinin üçdə biri baş götürüb qonşu ölkələrə qaçmış, qalanları isə məşəqqətli həyat sürməli olmuşlar. Yalnız "Taliban" rejiminin devrilməsindən sonra bu ölkədə vəziyyət dəyişməyə başlayıb. Yeni hakimiyyətin yaradılması və ölkənin bərpası prosesinə start verilməsi təsərrüfatın və sosial həyatın dirçəldilməsi üçün əlverişli şərait yaradıb.

Ardı 2-ci səh.

## Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.48.11-ci yarımbəndində göstərilmiş məbləğin 22,0 (iyirmi iki) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2018-ci il*

## Proqnozlar doğrulur

### Gəlirli olması əhali arasında baramaçılığa marağı artırıb

Ötən ilin avqust ayında Qaxda keçirilmiş respublika müşavirəsində Prezident İlham Əliyevin ən çox diqqət ayırdığı sahələrdən biri baramaçılığın inkişafı ilə bağlı idi.

Dövlət başçısı bu sahənin inkişafı üçün ölkəmizdə çox böyük və zəngin ənənələrin mövcudluğunu, xarici bazarlara yaxın olmağımızı, qədim İpək yolu üzərində yerləşməyimizi, uzun illər ipəkçilikdə yaxşı nəticələr əldə etməyimizi sadalayaraq bildirmişdi ki, bu ənənəvi sahəni Azərbaycanda sürətlə inkişaf etdirmək lazımdır.

Həmin müşavirədən hələ iki il əvvəl dövlət başçısı baramaçılığın ən vacib ənənəvi sahələrdən biri kimi inkişafına göstəriş verdikdən sonra ciddi tədbirlər həyata keçirilmişdir. Nəticədə 2016-cı ildə təkcə Qax kümçüləri 3,8, 2017-ci ildə 12,5 ton yüksək keyfiyyətli barama istehsal etmişlər. Bu isə bir rayonun timsalında barama tədarükünün 3 dəfədən çox artması demək idi. İpəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması, məhsuldar tut ipəkqurdunun cins və hibrid toxumlarının gətirilməsi sonrakı illərin məhsuldarlığına ciddi təsir etdi. Seleksiya-damazlıq işlərinin təşkili məqsədilə Qax Damazlıq İpəkçilik Stansiyasının müasir standartlar səviyyəsində yenidən qurulması da barama istehsalını sürətləndirdi. Dövlət başçısının müvafiq sərəncamına əsasən, Qax Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqlarla təchiz olunmasına ayrılmış 4,5 milyon manat vəsait hesabına ildə 1,2 ton ipəkqurdu toxumu istehsal olunacaq ki, bu da daxili tələbatın yerli istehsal hesabına ödənilməsini təmin edəcək.

Artıq bu ilin rəqəmləri deməyə əsas verir ki, baramaçılığın inkişafında əldə edilən dönüş ciddi uğurların möhkəm təməlini qoymuşdur.

Ardı 3-cü səh.

## Azərbaycan sərmayəsinin sorağı getdikcə daha çox ölkədən gəlir



24 il əvvəl imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycan dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdirdi. Dünyanın 11 tanınmış neft şirkəti konsorsium yaradaraq Xəzərin Azərbaycan sektorundakı karbohidrogen mənbələrinin işlənməsi üçün sərmayə yönəltdi. Bu həm də ölkə iqtisadiyyatının dünyaya inteqrasiyasının bünövrəsinin yaranması demək idi.

Hazırda Azərbaycanın quruda və dənizdə yerləşən əməliyyat sahələrində 17 layihə üzrə imzalanmış Hasilatın Pay Bölgüsü Sazişi müvəffəqiyyətlə həyata keçirilir. Xarici tərəfdaşlarla birgə 35 müəssisə, 6 alyans, müxtəlif ölkələrdə çoxsaylı törəmə şirkət yaradılıb. Onlar müasir neft-qaz sənayesinin, demək olar ki, bütün sahələrində fəaliyyət göstərirlər. Neft-qaz sektorunda başlanan əməkdaşlıq, tərəfdaşlıq və iş birliyi artıq getdikcə iqtisadiyyatın daha geniş sahələrini əhatə edir.

İndi Azərbaycanın özü dünyanın bir çox ölkələrində sərmayə qoyaraq müvafiq işlər apararaq investisiya yönəldilən ölkədən investor ölkəyə çevrilib. Başqa sözlə, 24 il əvvəl iqtisadiyyatına, ilk növbədə, neft-qaz sənayesinə xarici sərmayə cəlb etməyə çalışan Azərbaycan indi Türkiyə, Gürcüstan, Ukrayna, Rumıniya, İsveçrədə sərmayələr yatırır.

Məsələn, SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Türkiyədə mühüm layihələr həyata keçirir. Qardaş ölkənin bu sektorda yeganə istehsalçısı olan "Petkim" şirkətin idarəçiliyində uğurlu nəticələr qazanır. 15 zavod, 6 köməkçi infrastruktur və ildə 3,6 milyon ton istehsal gücünə malik "Petkim"in əsas hədəfi istehsalat və xidmət keyfiyyətinin yüksəldilməsindən, istehlakçıların artan tələbatlarının vaxtında təmin edilməsindən ibarətdir. Dinamik inkişafda olan Türkiyə neft-kimya bazarında "Petkim"in payını 30 faizədək artırmaq məqsədilə neft emalı-neft kimyası-enerji-logistika-distribusiya zəncirindən ibarət geniş bir inteqrasiya layihəsinə start verilmişdir. Layihə 2023-cü ildə başa çatdırılmalıdır.

İnteqrasiya şəbəkəsinin əsas elementini illik emal gücü 10 milyon ton həcmində nəzərdə tutulan "STAR" neft emalı zavodu təşkil edir.

Ardı 3-cü səh.

# Bakıda Belarusun milli bayramı qeyd edilib




İyulun 3-də Belarusun Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirilib.

Səfir Gennadi Axramoviç bildirib ki, 1944-cü il iyulun 3-də Minskin faşist işğalçılarından azad edilməsi Belarusun Müstəqillik Günü kimi qeyd olunur. Bu döyüşlərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 32-ci tank briqadasının, həmçinin Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin iştirak etdiklərini diqqətə çatdıran diplomat onların xatirəsinin Belarusda daim böyük hörmət və ehtiramla yad edildiyini vurğulayıb.

Azərbaycan ilə Belarus arasındakı əlaqələrdən danışan səfir prezidentlər İlham Əliyev və Aleksandr Lukaşenkonun münasibətlərin inkişafında xidmətlərini qeyd edib. Azərbaycanın Belarus üçün strateji tərəfdaş olduğunu vurğulayan diplomat əlaqələrimizin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Rəsmi qəbulda çıxış edən Baş nazirin birinci müavini Yaqub Eyyubov əlamətdar gün münasibətilə Belarus xalqını Azərbaycan hökuməti adından təbrik edib. Azərbaycan ilə Belarusun dost ölkələr olduğunu söyləyən Yaqub Eyyubov Prezident İlham Əliyevin Belarusa, Prezident Aleksandr Lukaşenkonun isə Azərbaycana səfərlərinin iki ölkə arasındakı əlaqələrin inkişafına təkan verdiyini bildirib. Qeyd edib ki, münasibətlərimiz bir çox sahələrdə, o cümlədən iqtisadi, mədəni, humanitar sahələrdə uğurla inkişaf edir.

Baş nazirin birinci müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Belarusun hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini vurğulayıb. O, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Qəbulda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, KİV nümayəndələri iştirak ediblər.

# Azərbaycan Hökuməti ilə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası arasında Anlaşma Memorandumu imzalanıb



İyulun 3-də Azərbaycan Hökuməti ilə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası arasında Anlaşma Memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, memorandumu Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının baş katibi Elhadc As Si imzalayıblar. Memorandumun imzalanmasında məqsəd Azərbaycan ilə federasiya arasında qarşılıqlı maraq doğuran sahələrdə əməli əməkdaşlığın genişləndirilməsi üçün münbit şəraitin yaradılmasıdır.

Əli Əhmədov bildirib ki, Azərbaycanla Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası arasında dərin köklər mövcuddur.

Baş nazirin müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verib. Bildirib ki, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunub və 1 milyondan çox soydaşımız yurd-yuvalarından qaçqın və məcburi köçkün düşüb. Ermənistanın ölkəmizə hərbi təcavüzü və torpaqlarımızın işğalı nəticəsində meydana çıxan ağır humanitar böhranın həllində və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin inkişafında Federasiyanın xidmətləri var. O, qurumun Azərbaycana fəal surətdə göstərdiyi dəstəyin hökumətimiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

"Məcburi köçkünlərin sosial-iqtisadi və yaşayış durumunun yaxşılaşdırılması ölkəmizin humanitar ölçüdə müəyyənləşdirdiyi əsas prioritet sahələrdəndir", - deyən Baş nazirin müavini bu gün əhalinin həssas təbəqəsi sayılan qaçqın və məcburi köçkünlərə yardım göstərilməsi və onların müdafiəsinin təmin edilməsində dövlətimiz tərəfindən genişmiqyaslı işlərin görüldüyünü diqqətə çatdırıb.

Baş nazirin müavini iyulun 11-də məcburi köçkün soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin işğal edilmiş Kəlbəcər rayonu ərazisində öz doğmalarının məzarlarını ziyarət edərkən ermənilər tərəfindən qanunsuz olaraq həbs edilmələrindən 4 il keçdiyini deyib. Qeyd edib ki, bu məsələdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası öz imkanlarından və nüfuzundan istifadə etməlidir. O, günahsız insanların həbsdən azad edilməsi istiqamətində fəal işlər aparılmasının vacibliyini vurğulayıb.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının baş katibi Elhadc As Si ölkəmizdə olmasından və ona göstərilən yüksək qonaqpərvərlikdən məmnunluğunu bildirib. Qonaq təmsil etdiyi təşkilatla Azərbaycan Hökuməti arasında əməkdaşlığın gücləndirilməsinin yaxşı imkanlar açacağına əminlik ifadə edib. Azərbaycan dövlətinin öz yurd-yuvalarından didərgin düşən soydaşları üçün yaratdığı şəraiti yüksək dəyərləndirdiklərini vurğulayan baş katib əsas hədəflərinin təkcə Azərbaycanda deyil, bütün regionda ehtiyacı olan insanların həyat şəraitini öyrənməklə onlara yardım etmək olduğunu bildirib.

Görüşdə maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə nazirinin rəhbərliyi ilə səhra şəraitində müşavirə keçirilib



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov səhra şəraitində keçirilən təlimlərin əsas komanda idarəetmə məntəqəsində olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirliyin rəhbər heyəti hərbi hissənin ərazisində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri qoyub, əbədiyaşar liderin xatirəsinə dərin hörmət və ehtiramlarını ifadə ediblər. Təlimlərə cəlb edilmiş zabit heyəti ilə keçirilən xidməti müşavirədə birləşmə və hərbi hissələrin komandir, rəis heyətlərinin planları, fəaliyyətləri, qəbul etdikləri qərarlarla bağlı məruzələr dinlənilib.

Müşavirədə çıxış edən müdafiə naziri hazırkı dövrdə belə təlimlərin əhəmiyyətini xüsusi vurğulayaraq qarşıda duran vəzifələrdən danışıb, müvafiq tapşırıq və göstərişlər verib.

# Döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib



Genişmiqyaslı təlimlərin planına əsasən təlimlərdə iştirak edən döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib. "Həyəcan" siqnalı ilə qaldırılan döyüş aviasiya vasitələri ehtiyat aerodromlarına çıxarılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hava hücumundan müdafiə vasitələrinin ərazidə yerləşdirilməsi başa çatdırılıb.



# İsti bu dəfə işığı vurdu

## Amma görülən operativ tədbirlər nəticəsində ölkə işıqsız çox qalmadı

*Əvvəli 1-ci səh.*

Sərt keçən qış deyil ki, şaxtanın bizim üçün gözlənilməz olduğundan şikayətlənək, hərçənd, belə baxanda, bunun da yeri yoxdur. Çünki təbiətin qanunauyğunluqları kimi, şıltaqlıqları da var və hamı onları qəbul etməlidir. Bir də ki, etməyib nə edəcəyik?! İndiyəcən təbiətin kaprizlərinə qalib gələn olubmu?!

Bu baxımdan iyulun 2-dən 3-nə keçən gecə ölkə ərazisi boyu elektrik enerjisinin verilməsində yaranan fasiləni və həmin fasiləni törədən qəza hadisəsinin səbəbini də təbii fəlakət hesab etmək olar. "Azərenerji" ASC, Fövqəladə Hallar Nazirliyinin yaydıqları məlumatdan aydın oldu ki, havaların kəskin isti keçməsi elektrik enerjisinin istehlakını kəskin surətdə artırıb və nəticədə Mingəçevir İES-in yarımstansiyasında cərəyan transformatoru normadan artıq yüklənmə səbəbindən sıradan çıxıb. Daha doğrusu, İES-in 6-cı blokunda yanğın baş verib. Adları çəkilən qurumların gördükləri tədbirlər nəticəsində yanğın tezliklə söndürülüb və bir neçə saatdan sonra ölkə ərazisində mərhələlərlə elektrik enerjisinin təchizatı bərpa olunub.

Yeri gəlmişkən onu da vurğulayaq ki, qəza baş verən kimi dövlət başçısına bu barədə məlumat verilmiş və Prezident yaranmış vəziyyəti şəxsi nəzarətinə götürmüşdür. Dünən isə dövlət başçısı hadisə ilə əlaqədar Dövlət Komissiyasının yaradılması barədə sərəncam imzalamışdır. Baş nazirin birinci müavini (sədr), energetika naziri (sədr müavini), eləcə də fövqəladə hallar naziri, Baş prokuror, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, "Azərenerji" ASC-nin sədri, Mingəçevir ŞİH-in başçısının üzv olduqları komissiyaya hadisənin başvermə səbəblərini araşdırmaq, qəzanın nəticələrini aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirmək və həyata keçirmək, görülmüş işlər barədə dövlət başçısını mütəmadi məlumatlandırmaq tapşırıqları verilmişdir. Dünən həmçinin Prezidentin tapşırığı ilə Baş nazirin müavini Yaqub Eyyubov və "Azərenerji" ASC-nin sədri Etibar Pirverdiyev Mingəçevirə getmiş və İES-də qəzanın fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərlə yerində tanış olmuş, müvafiq tədbirlər görmüşlər.

Qəzadan, xüsusən də təbii fəlakət (anomal istiləri də təbii fəlakət saymaq olar) üzündən baş verən qəzadan heç kim sığortalanmayıb. Dünyanın hətta ən güclü, ən inkişaf etmiş ölkələrində belə, bu cür hadisələr baş verir və çox zaman da insan itkisi qarışıq fəsadsız ötüşmür. Azmı eşitmişik ABŞ kimi ölkənin ya zəlzələdən, ya vəlvələdən yaranan təbii fəlakətlərin əlində aciz qalmasını?! Odur ki, Azərbaycanda ara-sıra baş verən təbii hadisələri, o cümlədən iyulun 2-dən 3-nə keçən gecə Mingəçevir İES-dəki qəzanı ölkənin müvafiq strukturlarının yarıtmaz fəaliyyəti kimi qələmə vermək istəyənləri yalnız qərəz mərəzinə tutulmuş insanlar adlandırmaq olar. Bunu başqa nə adlandırasan ki, öz ölçüsünə və əhəmiyyətinə görə elə də kiçik olmayan qəzanın fəsadları hadisə baş verəndən cəmi 2-3 saat sonra aradan qaldırılmağa başlandı. Üstəlik, hadisənin gecə baş verdiyini də nəzərə alsaq, onda ölkənin istər energetiklərinin, istərsə də fövqəladə hallar əməkdaşlarının necə operativ işlədikləri daha aydın olar. Biz hələ elə həmin saat Azərbaycanın sərhəd regionlarının uzun müddət işıqsız qalmamaları üçün elektrik enerjisi mübadilə etdiyi qonşu ölkələrlə danışıqlar aparıb problemi həll etdiyini, strateji obyektlərin enerji təchizatının anındaca bərpa olunmasını və s. bu kimi digər tədbirləri demirik. Bütün bunlar bir daha göstərdi ki, Azərbaycanın müvafiq strukturları fövqəladə hallarda belə, vahid mexanizm kimi dəqiq və operativ işləyir.

Qaldı belə hadisələrin baş verməməsi üçün qabaqlayıcı tədbirlərə, yəqin ki, bu işdə müəyyən problemlər var və onları sonuncu qəzanın subyekti olan energetiklər daha yaxşı bilirlər. Əks halda, dövlət başçısı qeyd olunan sərəncamda baş vermiş hadisədə təqsirkar şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları üçün Baş Prokurorluğa Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə istintaq tədbirləri görməyi tapşırmazdı. Axı, ən azından energetiklər ölkə ərazisinə həddən artıq isti hava kütləsinin daxil olacağı barədə məlumat almışlar və bu səbəbdən yanğın əleyhinə tədbirləri ikiqat gücləndirməli idilər. Heç olmasa, yükləməni azaltmaq üçün əhaliyə elektrik enerjisindən qənaətlə istifadə etmək barədə xəbərdarlıq edilməliydi. İnanmırıq ki, belə qəzalardan ən çox əziyyət çəkən əhali bu cür xəbərdarlığa, çağırışa biganə qalaydı.

Şükür etməliyik ki, qəza gecə baş verib. Gündüz baş versəydi, onun nə ilə nəticələnə biləcəyini təsəvvür etmək çətin deyil. Amma əvəzində buna zəmanət vermək çətindir. Odur ki, hamılıqla belə anomal isti günlərdə diqqətli və məsuliyyətli olmalı, ilk növbədə elektrik enerjisindən maksimum qənaətlə istifadə etməliyik. Ən azından sonradan bu istidə saatlarla işığın yanmasını gözləməmək üçün...

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı

*Əvvəli 1-ci səh.*

Artıq ölkədə müsbətə doğru dəyişikliklər hiss olunmağa başlayıb. Bununla belə, Əfqanıstanda həyatın normal axarına qayıtması üçün çox işlər görülməlidir. Xüsusən, ölkədə təhlükəsizliklə bağlı ciddi problemlər mövcuddur.

### Alis Uels: "Bakının görüş yeri seçilməsi faktı Azərbaycanın oynadığı rolun təzahürüdür"

2009-cu ildə təsis edilən Beynəlxalq Təmas Qrupu Əfqanıstan və bu ölkənin yerləşdiyi regionun inkişafına töhfə verilməsi üçün müzakirələrin aparılmasına xidmət edən platformadır. Azərbaycan da daxil olmaqla 60 dövlət və beynəlxalq təşkilat bu qrupda təmsil olunur. Geniş tərkibli beynəlxalq ölkələr qrupu Əfqanıstan-Taliban münaqişəsinin həllinə dair əməkdaşlıqda çox maraqlıdır.

Bütün iqtisadi resursları, infrastrukturu dağılan bir ölkə qarşılaşdığı çətinlikləri təkbaşına aradan qaldıra bilməz. Odur ki, Əfqanıstan problemi qonşu dövlətlərin də regional siyasətlərində mərkəzi yerlərdən birini tutur. Əfqanıstanda ötən illərdə donor ölkələrin və beynəlxalq maliyyə qurumlarının maliyyə və texniki yardımı ilə iqtisadiyyatın və infrastrukturun bərpası istiqamətində xeyli iş görülüb. Əfqanıstana yardım edən ölkələrdən biri də Azərbaycandır.

ABŞ Dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini Alis Uels iyunun 29-da Bakıda keçirdiyi mətbuat konfransında deyib ki, Azərbaycan Əfqanıstanın regiona iqtisadi inteqrasiyası üzrə səylərin mərkəzində dayanır. ABŞ hökuməti Əfqanıstanda sülhlə bağlı istənilən prosesdə iştirak etdiyinə görə Azərbaycana minnətdarlıq edir. "Bu dəstəyə görə Azərbaycan hökumətinə təşəkkür edirik. Bakının görüş yeri seçilməsi faktı bu ölkənin oynadığı rolun təzahürüdür. Azərbaycan Əfqanıstan məsələsində vacib rol oynayır" - deyə Alis Uels bildirib.

Regional sülh, sabitlik və çiçəklənməyə töhfə vermək əzminə və Əfqanıstanla ənənəvi dostluq əlaqələrinə malik olan Azərbaycan 2012-ci ildə "Asiyanın Qəlbi - İstanbul Prosesi"nə də qoşulub. Çünki respublikamız bu prosesi Əfqanıstanda sülhün, barışığın, təhlükəsizliyin və iqtisadi inkişafın əldə edilməsi istiqamətində dialoq və əməkdaşlıq üçün dəyərli mexanizm hesab edir. 2012-ci ildə prosesə qoşulandan bəri bu çoxtərəfli platformada fəal şəkildə iştirak edən Azərbaycan ondan əvvəlki dövrlərdə də Əfqanıstanda sülh və təhlükəsizliyin bərqərar olunması işində yaxından iştirak edib, bu ölkənin inkişafına mühüm töhfələr verib. Təsadüfi deyil ki, 2017-ci ilin dekabrında Azərbaycanın Əfqanıstanla birlikdə həmsədrliyi çərçivəsində "Asiyanın ürəyi - İstanbul Prosesi"nin yeddinci nazirlər iclası da Bakıda keçirilib.

Xatırladaq ki, bundan əvvəl Rusiya ilə ABŞ və NATO arasında ali hərbi danışıqlar da iki dəfə Bakıda keçirilib. Bu da ölkəmizin hərbi-siyasi problemlərin çözülməsi, sülh və əməkdaşlıq yollarının müzakirə edilməsi üçün ideal məkan olduğunu təsdiqləyir. ABŞ-Rusiya və NATO-Rusiya hərbi danışıqlarının Bakıda keçirilməsi Azərbaycan dövlətinin həyata keçirdiyi müstəqil siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanmasının və qəbul edilməsinin əyani təsdiqidir. Bu görüşlər zamanı Azərbaycanın adı ABŞ-Rusiya münasibətlərinin yoluna qoyulması təşəbbüslərində çəkildi. Bakı bu dəfə də barışdırıcı missiyanı yerinə yetirdi.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri Cozef Danford və NATO-nun Hərbi Komitəsinin sədri general Petr Pavellə görüşləri üçün Bakının müəyyən edilməsi onu bir daha göstərdi ki, Azərbaycan tamamilə müstəqil - nə Rusiyanın, nə də ABŞ-ın təsir dairəsində olan dövlətdir. Bu gün dünya dövlətləri ABŞ və Rusiyanın müttəfiqləri qismində bölünüb. Onlar görüş üçün müstəqil siyasət yeridən, heç bir hərbi bloka qoşulmayan Azərbaycana gəlməyə üstünlük verdilər.

Bütün bunlar təsdiq edir ki, Azərbaycan dünyanın hərbi-siyasi qütbləri, nüfuzlu beynəlxalq təşkilatları, aparıcı siyasi, iqtisadi və hərbi dairələrin böyük ehtiramını qazanıb. Ölkəmiz dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Ən əsası, Azərbaycanın müstəqil siyasəti, ölkədə mövcud olan sabitlik, təhlükəsizlik onu ən yüksək səviyyəli görüşlərin keçirilməsi üçün ideal məkana çevirib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *FHN:* "Mingəçevirdəki İstilik Elektrik Stansiyasındakı yanğının söndürülməsinə 11 texnika və 50-dən çox şəxsi heyət cəlb edilib"

Fövqəladə Hallar Nazirliyi (FHN) "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-də baş vermiş qəza ilə bağlı rəsmi məlumat yayıb.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, iyulun 3-də saat 00:20-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayış baş verib. Yanğın hadisəsi baş verəndən 4 dəqiqə sonra Dövlət Yanğından Mühafizə Xidmətinin ilk yanğın bölmələri yanğının söndürülməsi işlərinə başlayıb. Obyektin əhəmiyyəti nəzərə alınaraq yanğının söndürülməsi üçün "3 saylı çağırış" elan olunub, 11 yanğınsöndürmə texnikası və 50 nəfərdən çox şəxsi heyət cəlb edilib.

Açıq paylayıcı qurğular stansiyasında transformatorda baş verən yanğın saat 00:52-də, 6-cı enerji blokunun qazanxana qurğusundakı yanğın isə saat 01:10-da yanğın bölmələri tərəfindən söndürülüb. Stansiyanın turbinləri və digər qurğular yanğından mühafizə olunub.

Yanğın zamanı xəsarət alan olmayıb.

# Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələri müzakirə edilib

İyulun 3-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri İndoneziya Xalq Məşvərət Məclisinin nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Əli Hüseynli Azərbaycan və İndoneziya xalqlarının dost, qardaş xalqlar olduğunu deyib. Bildirib ki, coğrafi baxımdan ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, xalqlarımızı ortaq ənənələr, din birləşdirir.

Əli Hüseynli qeyd edib ki, İndoneziya son illər iqtisadi baxımdan sürətlə inkişaf edir. İndoneziyanın Azərbaycanla sıx siyasi, iqtisadi, mədəni əlaqələri var. Bu əlaqələrin, eləcə də parlamentlərarası münasibətlərin daha da inkişafı üçün bu cür səfərlər çox vacibdir.

Nümayəndə heyətinin rəhbəri Zainut Tauhid Saadi Azərbaycana səfərdən məmnunluqlarını bildirib, ölkəmizdə gördüklərinin onlarda xoş təəssüratlar yaratdığını qeyd edib. O, Azərbaycan ilə İndoneziya arasında bir çox oxşarlıqların olduğunu söyləyib.

Qonaq ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlığın inkişafının məmnunluq doğurduğunu deyib, həmçinin parlamentlərarası əlaqələrin möhkəmləndirilməsinin önəmini vurğulayıb. O, turizm sahəsində əməkdaşlığın genişləndirilməsinin də zəruriliyini qeyd edib. Komitənin üzvləri Elşən Musayev, Çingiz Qənizadə, Tahir Kərimli Azərbaycan və İndoneziya xalqlarını bir çox dəyərlərin, ənənələrin birləşdirdiyini qeyd ediblər. Onlar qanunverici orqanlar arasında əlaqələrin inkişafının vacibliyini bildiriblər.

Görüşdə qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da ətraflı məlumat verilib.

# Energetika Nazirliyi və "Azərenerji" ASC: Problemin tam həlli üçün zəruri tədbirlər davam etdirilir

Energetika Nazirliyi və "Azərenerji" ASC birgə operativ məlumat yayıblar.

AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, ötən gün ölkənin elektrik enerjisi sistemində baş vermiş qəzanın nəticələri aradan qaldırılsa da, onun fəsadı səbəbindən axşam saatlarında bəzi yerlərdə elektrik enerjisi məhdudiyyətlə verilir. Həyati vacib əhəmiyyətli obyektlər elektrik enerjisi ilə artıq təmin edilib. Hazırda vəziyyət nəzarət altındadır və elektrik enerjisinin verilişi bərpa olunur.

Problemin tam həlli üçün zəruri tədbirlər davam etdirilir.

# Azərbaycan Ermənistanın təcridi siyasətini gücləndirir

Əvvəli 1-ci səh.

## "Məxməri inqilab" davam edir

Ermənistanın belə vəziyyətdə Azərbaycana hansısa formada müqavimət göstərməsinin mümkünsüzlüyü artıq işğalçı ölkədə açıq etiraf olunur. Əslində, burada diqqət indi daha çox başqa məqamlar üzərində cəmlənir. Belə ki, Ermənistanda yeni hakimiyyətin əvvəlki iqtidar nümayəndələrinə qarşı həbs və digər formada təzyiq göstərmək metodu getdikcə daha geniş vüsət almağa başlayıb.

Bu fonda indi fikirlər səslənir ki, Ermənistanda sanki "məxməri inqilab" davam edir. Siyasətçi və ictimai xadim, "Yeni Ermənistan" partiyasının sədri, yaxın keçmişdə isə "Rosreyestr"də və "Rosimuşestvo"da rəhbər vəzifələr tutmuş erməni ekspert Boris Avakyan da qeyd edilənləri təsdiqləyir.

Bildirir ki, "Ölkədə yüksək vəzifəli bəzi məmurları da yaxşı heç nə gözləmir: "Son bir ayda general Manvel Qriqoryan həbs olunub, o, Respublika partiyasından deputat, "Yerkrapa" Könüllülər Birliyinin rəhbəridir. Oğlu Eçmiədzinin meriydi və atasının həbsindən sonra vəzifədən gedib. Ona da ittiham elan edilib. General Qriqoryanın arvadı da tutulub, onun evi və bağ evi axtarılarkən çoxlu "Əsgər payı" ət konservləri, corab, siqaret, əlcək və Müdafiə Nazirliyinin anbarlarından oğurlanmış başqa mallar tapılıb. Fikrimcə, faktiki olaraq Eçmiədzin şəhərini "qəsb edən" və orada feodal kimi hökm sürən general Qriqoryan kimi ünsürün zərərsizləşdirilməsi düzgün qərardır və mən bunu bütünlüklə dəstəkləyirəm.

Bu günlərdə Ermənistanın keçmiş prezidentinin qardaşı Aleksandr Sarkisyan və Serj Sarkisyanın mühafizəsinin keçmiş rəisi, ehtiyatda olan general-mayor Vaçaqan Qazaryan həbs edilib. Onu pul götürdüyü banklar üzrə "turne" prosesində həbs ediblər, onda milyardlarla dram tapılıb".

## Azərbaycanla silah yarışı aparmaq düzgün deyil

Məmurların saxlanılması və həbsləri korrupsiyanın öhdəsindən gəlməyə nə dərəcədə imkan verəcəyini o belə şərh edir: "Korrupsiya iqtisadi hadisədir və dünyanın bütün ölkələrində bu və ya digər dərəcədə var. Hesab edirəm ki, korrupsiyanın səviyyəsini gerçəkdən azaltmaqda təkcə həbslər azdır. Dövlət qulluqçularının, hüquq-mühafizə əməkdaşlarının maaşlarını yüksəltmək lazımdır. Düşünmək lazımdır ki, bunu necə edək və vəsaiti haradan götürək? Dövlət gəlirlərini artırmaq və Müdafiə Nazirliyinin xərclərini azaltmaq gərəkdir. Ermənistan öz büdcəsinin 30 faizə qədərini uzun illər boyu buna sərf edib. Bu, ölkəni var-yoxdan çıxaran iki əvvəlki prezident üçün əlverişliydi. Amma məsələn, bax, həm ərazicə, həm də əhalicə Ermənistanla tutuşdurula biləcək üç Baltikyanı respublika ÜDM-in cəmi iki faizini müdafiəyə xərcləyir".

Erməni ekspert bildirir ki, ölkəsinin Azərbaycanla silah yarışı aparması da mümkün deyil: "Çox işləmək, vəsaitləri effektsiz layihələrdə itirməmək, Azərbaycanla silahlanma qovğasından çıxmaq və populizmlə məşğul olmamaq lazımdır. Şəxsi fantaziya və utopiyalardan deyil, gerçəkliklərdən çıxış edərək yaşamaq gərəkdir".

## Bakıdakı paradda nümayiş etdirilən silahlar Ermənistan üçün əlçatmazdır

İndi erməni tərəfini daha çox narahat edən Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə Bakıda keçirilmiş hərbi paradda nümayiş etdirilən möhtəşəm silahlardır. İşğalçı ölkə bu silahların onun üçün əlçatmaz olduğunu yaxşı bilir.

"Ermənistanın hərbi sənaye kompleksi" bloqunun aparıcısı Samvel Aqbabyan bildirir ki, Azərbaycan milyardlarla dolları müasir silahlara və hərbi texnikaya parad üçün xərcləmir. Bu silahlar Qarabağ probleminin hərbi yolla həll edilməsi üçün alınır. Aqbabyana görə, Azərbaycanın operativ-taktiki və tank əleyhinə raket kompleksləri, raket-artilleriya silahları və zərbə dronları Ermənistan və Dağlıq Qarabağdakı rejim üçün xüsusi təhlükəsizlik təhdidi yaradır: "Bu silahlar yüksək texnologiyalara əsaslandığına və uzaq məsafədən hədəfləri vurduğuna görə Azərbaycan silahlı qüvvələrinə imkan verəcək ki, birbaşa atəş təmasına girmədən effektiv hərbi əməliyyatlar aparsın".

Aqbabyan "Kavkazskiy uzel" portalına açıqlamasında, xüsusən diqqəti Bakıdakı paradda ilk dəfə nümayiş etdirilmiş SOM-B1 aviasiya operativ-taktiki raketinə cəlb edib: "Belə hesab etməyə əsas var ki, Azərbaycanın Su-25 döyüş təyyarələri Türkiyədə SOM-B1 qanadlı raketlərini daşımaq üçün modernləşdirilib".

## Rəsmi Yerevan üçün xoşagəlməz xəbər

Digər hərbi analitik Leonid Nersisyan isə bildirir ki, Bakıda SOM-B1 raketinin nümayiş etdirilməsi Ermənistan üçün xoşagəlməz xəbər oldu: "250 kilometr mənzilli qanadlı, üstəlik də, olduqca aşağı hündürlükdən uçan raket Ermənistan üçün xoşagəlməz xəbər oldu. HHM sistemi bu cür hədəflərlə mübarizə apara bilər, amma bu, sadə məsələ deyil. Bunun üçün radiolokasiya stansiyalarının geniş şəbəkəsi və zenit-raket komplekslərinin heyətlərinin yüksək peşəkarlığı gərəkdir".

İndi paradda nümayiş etdirilən silahlar ermənilərin etiraf etdikləri kimi, heç nə vəd etmir. Bütün bunlar hərbi texnika baxımından işğalçı ölkənin Azərbaycana böyük fərqlə uduzduğunu aydın təsdiqləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Günnüt kəndində etibarlı müdafiə sistemi yaradılıb



Naxçıvan Muxtar Respublikasında ordu, birləşmə və hissələr üçün nümunəvi xidmət şəraiti yaradılıb. Güclü maddi-texniki təminat, yüksək xidmət şəraiti və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Ordumuz tərəfindən nəzarət altına götürülən Günnüt kəndində də etibarlı müdafiə sistemi qurulub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Günnüt kəndindəki hərbi hissədə olub, burada xidmət keçən əsgər və zabitlərlə görüşüb.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgərləri salamlayıb, Azərbaycan Xalq Cümhuriyyəti və Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə şəxsi heyəti təbrik edərək deyib: Ulu öndər Heydər Əliyev deyirdi: "Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır". Ümummilli lider ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi tədbirlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan inkişaf etdikcə, ordumuzun da qüdrəti artır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad da ordumuzun gücünün və qüdrətinin daha bir nümayişi oldu.

Ali Məclisin Sədri deyib: Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da ardıcıl və sistemli şəkildə icra olunmaqdadır. Əlahiddə Ümumqoşun Ordu və Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki birləşmə və hissələri böyük təşkilatlanma və inkişaf yolu keçmiş, şəxsi heyət peşəkarlığını artırmışdır. Keçirilən hərbi əməliyyatlar onu deməyə əsas verir ki, muxtar respublikada torpaqlarımızı etibarlı müdafiə edən və hər an işğal altındakı torpaqlarımızı azad etməyə qadir olan güclü ordu formalaşıb. Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".

Ali Məclisin Sədri bu əməliyyatların həyata keçirilməsində iştirak edən hərbi hissələrin şəxsi heyətinə təşəkkür edib, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib: Şərur rayonunun mühüm strateji əhəmiyyətə malik olan Günnüt kəndi 1992-ci ildə işğal edilmişdi. Lakin Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilər işğaldan azad olunub. Şəxsi heyət əməliyyatlar keçirilən zaman rəşadət göstərərək böyük bir ərazini nəzarətə götürmüşdür. Qazanılan uğur Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən "Uğurlu Naxçıvan əməliyyatı" adlandırılmış, bu əməliyyatda xidməti olanlar təltif olunmuş və onların göstərdikləri qəhrəmanlıqlar yüksək qiymətləndirilmişdir.

Kərəm Mustafayev təltif olunan, mükafat alan, əməyi dəyərləndirilən hər bir şəxs adından Ali Baş Komandana və Ali Məclisin Sədrinə minnətdarlıq edib, bundan sonra da qarşıya qoyulacaq hər bir tapşırığı uğurla yerinə yetirəcəklərini bildirib.

Zabit Rəşad Əliyev və gizir Hüseyn Vəliyev minnətdarlıq edərək deyiblər: Uzun illərdir işğal altında olan Günnüt kəndinin nəzarətə götürülməsi bizim döyüş ruhumuzu daha da artırıb. Biz fəxr edirik ki, bu əməliyyatda iştirak etmişik. Düşmənin yaşayış məntəqələri və mühüm strateji yolları nəzarətimiz altındadır. Şəxsi heyət istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Biz bu zəfəri Şuşada, Laçında, Kəlbəcərdə və digər işğal altında olan torpaqlarımızda da qeyd edəcəyik.

Əsgər Rasim Əhmədəliyev çıxış edərək deyib: Günnüt əməliyyatının uğurla başa çatdırılması ordumuzun qüdrətinin və peşəkarlığının nəticəsidir. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi paradda Ali Baş Komandan tərəfindən Günnüt əməliyyatının yüksək qiymətləndirilməsi bizim qələbə əzmimizi artırıb. Döyüş mövqelərində xidmətin nümunəvi təşkili üçün yaradılan şərait göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Şüarımız və amalımız birdir: "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün".

Ali Məclisin Sədri Günnüt əməliyyatında iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim edib.

Sonra Ali Məclisin Sədri Günnüt kəndində və ətraf ərazilərdə yerləşən postlarda olub, əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb.

Ali Məclisin Sədri hərbi əməliyyatların uğurla başa çatması münasibətilə şəxsi heyətə təşəkkürünü bildirərək deyib: Azərbaycan Ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nailiyyətdir. Bu, həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, ordu quruculuğu sahəsində görülən işlər torpaqlarımızın işğaldan azad olunmasına yönəldilmişdir. Azərbaycan dövləti torpaqlarımızın sülh yolu ilə azad olunmasının tərəfdarıdır. Lakin Aprel döyüşləri bir daha təsdiq etdi ki, Azərbaycan həm sülh, həm də müharibə yolu ilə torpaqlarını azad etməyə qadirdir. Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi.

Ali Məclisin Sədri əsgər və zabitlərə hədiyyələr təqdim edib.

Sonra ön xətdə yerləşən digər postlarda şəxsi heyətlə görüşən Ali Məclisin Sədri göstərdikləri şücaətə görə əsgər və zabitləri təbrik edib, onlara təşəkkürünü bildirib.

Zabit Rəşad Məmmədov minnətdarlıq edərək deyib: Naxçıvan əməliyyatında şanlı Azərbaycan əsgəri düşmənə layiqli cavab verdi. Əməliyyatın çətinliklərinə baxmayaraq, hər bir hərbi qulluqçu dövlətin və xalqın dəstəyini öz üzərində hiss edərək qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi. Fəxr edirik ki, bu torpaqların azad olunmasında iştirak etdik. Söz veririk ki, torpaqlarımızı bundan sonra da şərəflə qoruyacağıq. Bu əməliyyat bir daha düşmənə göstərdi ki, onun istənilən təxribatının qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaqdır. Şəxsi heyətimiz hər cür qayğı ilə əhatə olunub. Bu yaxınlarda hərbi qulluqçularımızın təltif olunması və onlara rütbələrin verilməsi bizi daha da ruhlandırdı. Növbəti döyüş əmri uğrunda əsgəri şücaətimizi göstərməyə hər an hazırıq.

Sonra Ali Məclisin Sədri işğaldan azad edilən Günnüt kəndində olub, ərazidə müdafiənin təşkili və mövqelərin möhkəmləndirilməsi barədə tapşırıqlar verib.

Ali Məclisin Sədri dayaq məntəqələrində xidmət aparan hərbi qulluqçularla görüşüb, onları təbrik edərək deyib: Vaxtilə bu ərazilər ermənilər tərəfindən işğal olunmuş, Günnüt kəndində yaşayış yerləri dağıdılmışdır. Lakin uğurlu əməliyyatlardan sonra 10 min hektardan artıq əkinəyararlı torpaqlar nəzarət altına keçmişdir. Bu, Azərbaycan Ordusunun gücünün və şəxsi heyət arasındakı ruh yüksəkliyinin göstəricisidir. O ordu güclü deyil ki, onun çoxlu silah-sursatı vardır. O ordu güclüdür ki, onun əsgərlərinin döyüş ruhu yüksəkdir. Keçirilən əməliyyatlar Azərbaycan Ordusunun döyüş ruhunu göstərdi. İtki verilmədən torpaqlarımız geri alındı.

Daha sonra Ali Məclisin Sədri bölük mərkəzində şəxsi heyətlə görüşüb, onlara hədiyyələr təqdim edib.

Əsgər Turan Dövrüşov minnətdarlıq edərək deyib ki, təlimlərdə qazandığımız təcrübə bizim qələbəmizin əsasını təşkil edir. Şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Daim üzərimizdə qayğı hiss edirik. Bu dağlıq şəraitdə xidmətin təşkili üçün lazımi şərait yaradılır. Qarşımızda bir müqəddəs vəzifə dayanır. O da torpaqlarımızı qorumaqdan və verilən tapşırıqları uğurla icra etməkdən ibarətdir.

Məlumat verilib ki, ön xətdə şəxsi heyət üçün lazımi şərait yaradılır. Postlarda və bölük mərkəzlərində yeni yataqxana və xidmət binaları inşa olunur. Eyni zamanda, ərazidə yeni yollar çəkilir, postlar arasında rahat əlaqə təmin edilir.

Ali Məclisin Sədri tikinti işlərini həyata keçirən heyətlə görüşüb, çətin dağlıq şəraitdə xidmətin nümunəvi təşkili üçün yaratdıqları şəraitə görə onlara təşəkkür edib.

Ali Məclisin Sədri Qızılqaya yüksəkliyində və müşahidə məntəqəsində olub, mövqelərimizin vəziyyəti ilə tanış olub.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat verib.

Qeyd olunub ki, Əlahiddə Ümumqoşun Ordu müdafiə zolağının Vəlidağ, Kömürlüdağ istiqamətində Axsal dağı, Qızılqaya dağı, Yağargərdik dağı, Bağırsaq dağı və Həsənqulubağ sahəsində ön xəttin dövlət sərhədi boyu əlverişli mövqeləri ələ keçirib. 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirilib. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometr yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis-istehkam tədbirləri görülüb, postlar arasında dayanıqlı rabitə əlaqəsi yaradılıb, yeni səngərlər qazılıb. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi yaradılıb.

Ali Məclisin Sədri müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirib, müdafiə mövqelərinin möhkəmləndirilməsi barədə tapşırıqlar verib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilib.

# Azərbaycan sərmayəsinin sorağı getdikcə daha çox ölkədən gəlir

Əvvəli 1-ci səh.

Zavod ilk növbədə, "Petkim"i xammalla (yüngül və ağır nafta ilə) təmin etmək üçün inşa olunur. "STAR"ın Azərbaycan iqtisadiyyatına ilk 5 ildə hər il 614 milyon, növbəti 10 il ərzində isə hər il 864 milyon dollar həcmində gəlir gətirəcəyi gözlənilir.

"STAR" Türkiyədə ilk "Strateji İnvestisiya Təşviq Sənədi" verilən layihədir. Zavod regionda Azərbaycan iqtisadiyyatının nüfuzunu artıracaq, Aralıq dənizi bazarında mövqelərimizi xeyli möhkəmləndirəcək.

Hazırda görülən işlərlə yanaşı, "Petkim" və "STAR" zavodunu elektrik enerjisi ilə fasiləsiz təmin edəcək külək enerji stansiyası tikilir. Stansiyanın quraşdırılması üçün 2014-cü ildə Alstom firması ilə müqavilə imzalanıb.

İnteqrasiya zəncirində vacib halqalardan birini təşkil edən konteyner limanının inşası üzrə Hollandiyanın "APM Terminals" şirkəti ilə əməkdaşlıq uğurla davam edir. Müqaviləyə əsasən, liman 28 il müddətində bu şirkət tərəfindən idarə olunacaq. Egey bölgəsinin ən böyük konteyner limanı olan "Petkim"in inşası keçən il yekunlaşıb. Bu layihənin potensialı 1,5 milyon standart konteyner təşkil edir. "Petkim"in davamlı inkişafı məqsədilə həyata keçirilən investisiya layihələri "SOCAR-Türkiyə Enerji" şirkətini bütövlükdə regionun ən böyük neft-kimya, logistika, konteyner, limançılıq və distribusiya komplekslərindən birinə çevirəcək.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının investisiya proqramlarının həyata keçirilməsi və bu yolla xarici ölkələrlə məhsuldar iqtisadi əlaqələrin qurulmasında neft-qaz sektoru mühüm rol oynayır.

Gürcüstanda Kulevi "Black Sea" terminalı Qara dənizdə strateji mövqe qazanmışdır. İldə 10 milyon ton neft və neft məhsullarının nəqlinə imkan verən terminalla Azərbaycan və Xəzər hövzəsindəki digər istehsalçı ölkələrin yükünün daşınması həyata keçirilir. İndiyədək buradan milyonlarla ton neft və neft məhsulları ötürülmüşdür.

Azərbaycan Gürcüstanın regional qaz təchizatında və neft məhsullarının pərakəndə satış bazarında da əhəmiyyətli yer tutur. Bu qurum ardıcıl olaraq "İlin ən yaxşı şirkəti" adına layiq görülür. "SOCAR Georgia Gas" MMC Gürcüstanda on minlərlə abonentə xidmət edir. Gürcüstanda "SOCAR" brendi ilə 115 yanacaqdoldurma stansiyası fəaliyyət göstərir. Gələcəkdə bu ölkədə şəbəkənin daha da genişləndirilməsi nəzərdə tutulur.

İsveçrədə treydinq şirkətinin yaradılması da qabaqcıl beynəlxalq neft şirkətlərinin təcrübəsinə uyğundur və ölkəmizdə həyata keçirilən iri neft-qaz layihələrində Azərbaycanın payına düşən mənfəət neftinin əhəmiyyətli dərəcədə artmasından, həmin həcmlərin səmərəli şərtlərlə satışının təşkil olunması zərurətindən irəli gəlmişdir.

İsveçrə, Rumıniya və Ukraynanın pərakəndə neft məhsullarının satışı bazarlarında da Azərbaycanın yeri möhkəmlənib. Hazırda "SOCAR" brendi ilə İsveçrədə, Ukraynada və Rumıniyada ümumilikdə 260-dan çox yanacaqdoldurma stansiyası fəaliyyət göstərir. Tətbiq olunan innovativ metodlar Avropa alıcılarının rəğbətini qazanmışdır. Azərbaycan beynəlxalq bazarlarda iştirak payını və coğrafiyasını bundan sonra da genişləndirməkdə maraqlıdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Proqnozlar doğrulur

## Gəlirli olması əhali arasında baramaçılığa marağı artırıb

Əvvəli 1-ci səh.

Belə ki, 2018-ci ildə Çin Xalq Respublikasından müqavilə əsasında 13 min qutu yüksək keyfiyyətli hibrid ipəkqurdu toxumları (qrena) alınıb və iqlim şəraiti nəzərə alınaraq iki mərhələdə ölkəmizə gətirilib. Toxumlar bu il aprelin 17-si və 24-də Kənd Təsərrüfatı Nazirliyinin Qax Damazlıq İpəkçilik Stansiyasında inkubasiyaya qoyulub. Onların inkubasiyası nəticəsində əldə olunan ipəkqurdlarının bir hissəsi aprelin 27-dən 29-dək bölgü əsasında Aran bölgəsindən olan 22 rayonun kümçülərinə paylanılıb. Yazın bir qədər gecikdiyi 17 dağlıq və dağətəyi zonalarda yerləşən 17 rayonun kümçülərinə də bölgü əsasında ipəkqurdları paylanmışdır. Baramaçılara ipəkqurdlarının əvəzi ödənilmədən paylanılması istehsalçıların bu sahəyə marağını daha da artırmışdır.

Tarixən ipəkçilik diyarı sayılan Şəkidə əhalinin əsas məşğuliyyət sahələri əsrlər boyu baramaçılıq olub. Sovet dönəmində Şəki İpək Kombinatının məhsulları bütün müttəfiq respublikalara ixrac edilərdi.

Barama ilə məşğul olan ev təsərrüfatlarının sayı 10 minə çatardı. Uzunmüddətli tənəzzüldən sonra artıq bir neçə ildir ki, bu rayonda da baramaçılıq inkişaf edir. 2016-cı ilin payızında 50 min yerli, 25 min xaricdən gətirilmiş tut tingi əkilib, yeni kümxanalar qurulub. Nəticədə, 2015-ci ildə cəmi 200 kiloqram barama istehasal edilən rayonda iki il sonra bu rəqəm 18 min tona çatdı. Bu, istehsalın 90 dəfə artması deməkdir. Sovet dönəmindən uzun illər qapıları bağlı qalan Şəki İpək Kombinatının da fəaliyyəti bərpa edildi. Artıq burada 600 nəfərdən çox işçi çalışır.

Ölkə üzrə isə əgər 2015-ci ildə cəmi bir rayonda 725 kiloqram yaş barama istehsal edilmişdisə, 2016-cı ildə 24 rayon üzrə 70, 2017-ci ildə 30 rayonu əhatə etməklə 244 ton yüksək keyfiyyətli yaş barama istehsal olunub. Bu isə respublika üzrə barama istehsalının 2015-2017-ci illər arasında 337 dəfə artması deməkdir! Artıq baramaçılıqla məşğul olan rayonların sayı 40-a yaxınlaşır. İldən-ilə ölkədə salınan çəkilliklərin sayı da sürətlə artır. 2017-ci ildə 37 rayonda 1,7 milyon tut tingi əkilib. Bu payızda da çəkilliklərin genişləndirilməsi, yeni tut tinglərinin əkilməsi nəzərdə tutulub.

Bu ilin göstəriciləri də ürəkacandır. Artıq ölkə üzrə 230 ton yaş barama tədarük olunmuşdur. Amma bu, son hədd deyildir. Barama tədarükü əksər rayonlarda davam edir. Cari il Zərdab rayonu digərlərindən xeyli irəlidədir. Rayonun kümçüləri indiyədək 49 ton 665 kiloqram yaş barama təhvil veriblər. Füzuli rayonunda 35 ton 985, Ağcabədidə 28 ton 898, Bərdədə 20 ton 893 kiloqram yaş barama tədarük olunub. Cari ildə Azərbaycanda yaş barama istehsalının 450-500 tona çatdırılması hədəf olaraq qarşıya qoyulub. Bu, ötən illə müqayisədə iki dəfə çoxdur.

Bu vaxtadək əkilmiş və bundan sonra əkilən ağacları nəzərə alsaq, 2019-cu ildə barama istehsalını ən azı 1000 ton səviyyəsinə çatdırmaq mümkündür. Prezident İlham Əliyev hələ ötən il qeyd etmişdir ki, əgər bütün planlarımız həyatda öz əksini tapsa, biz 2025-ci ildə 6 min ton barama istehsal edə bilərik: "...sovet vaxtının ən yüksək səviyyəsinə qalxıb, hətta onu keçə də bilərik. Real imkanlar var. Kütləvi şəkildə ağaclar əkilir. Bizdə iki il bundan əvvəl təqribən 300 mindən bir qədər çox tut ağacı var idi. Son 1-2 il ərzində isə onların sayı 2 milyon 200 minə çatdı. Bütün tinglər dövlət tərəfindən alınır, özü də xaricdən, valyuta ödənilir, baramaqurdu toxumları da gətirilir və ağacəkmə prosesi kütləvi xarakter alıbdır. Dövlət yenə də əsas yükü öz üzərinə götürür və tapşırıq verilmişdir ki, gələn dörd il ərzində əlavə 8 milyon tut tingi əkilsin".

Baramaçılıq üzrə xarici təcrübə ciddi öyrənilir, müasir texnologiyalar tətbiq edilir, yeni emal sahələrinin yaradılması, maddi-texniki bazanın gücləndirilməsi və ipəkçiliyin inkişaf modelinin hazırlanması istiqamətində araşdırmalar aparılır, bu işə xarici ekspertlər cəlb edilir, ipək məhsullarının ixrac imkanlarının genişləndirilməsi öyrənilir. Bir sözlə, belə qənaətə gəlmək mümkündür ki, hazırda 700-dən çox kənddə baramaçılıqla məşğul olurlarsa, bu, onu göstərir ki, həmin sahəyə böyük maraq var.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Baş Prokurorluq, DİN və DTX Elmar Vəliyevə sui-qəsdlə bağlı birgə məlumat yayıb

İyulun 3-də saat 20.30 radələrində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazov icra hakimiyyətinin inzibati binasının qarşısında naməlum şəxsin odlu silahdan açdığı atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb və xəstəxanaya yerləşdiriliblər.

Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, cinayəti törədən 1983-cü ildə Gəncə şəhərində anadan olan Yunis Səfərov dərhal həmin ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən tutularaq tərksilah edilib.

Fakt üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 29-cu, 120.2.3-cü, 120.2.7-ci (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar qəsdən adam öldürməyə cəhd) və 228-ci (qanunsuz olaraq odlu silah əldə etmə) maddələri ilə cinayət işi başlanılıb. Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

Hazırda cinayətdən zərər çəkmiş Elmar Vəliyevin və Qasım Aşbazovun səhhəti qənaətbəxş olmaqla hər ikisi ixtisaslı tibbi yardımla əhatə edilib.

Cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Faktla bağlı görülən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir.

# Hərbi hissədə görüş



Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin əməkdaşları vaxtaşırı hərbi hissələrdə olur, əsgərlərlə görüşlər keçirirlər. Belə görüşlərdən biri bu günlərdə "N" saylı hərbi hissədə olmuşdur.

Görüşdə çıxış edənlər bildirmişlər ki, ümummilli lider Heydər Əliyevin iradəsi sayəsində 1994-cü ildə cəbhədə atəşkəsə nail olunduqdan sonra ölkədə ordu quruculuğu, hərbi sənayenin inkişafı, gənc zabitlərin yetişdirilməsi istiqamətində çox böyük işlər görülüb. Maraqlı keçən görüşdə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ordu quruculuğu sahəsində görülən işlərdən də ətraflı danışılmış, qeyd olunmuşdur ki, Bakıda keçirilən paradda nümayiş olunan texnika, əsgərlərimizin döyüş hazırlığı, xalqımızda xoş əhvali-ruhiyyə yaratmışdır.

Sumqayıtlı gənclər də əsgəri borclarını layiqincə yerinə yetirirlər. Onların 2016-cı ildə aprel döyüşlərində göstərdikləri şücaət komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

Göstərilən diqqət və qayğıya görə minnətdarlıq edən əsgər və zabitlər dedilər ki, belə görüşlər onlarda xoş duyğular yaradır. Sonra Sumqayıt şəhər Gənclər və İdman və Regional Mədəniyyət İdarələrinin hazırladıqları "Qələbəyə doğru" adlı bədii-əyləncəli proqram əsgərlərə təqdim edildi. Gənc ifaçıların ifa etdikləri musiqi sədaları altında əsgərlərimiz rəqs edərək şənləndilər.

Axırda sumqayıtlılar gətirdikləri idman ləvazimatlarını əsgərlərə payladılar.

***A.ƏLİYEV,***
***"Azərbaycan"***

# Təbiəti də ana qədər sevmək və qorumaq lazımdır

Ekoloji mühit dedikdə, ilk növbədə qoynunda yaşadığımız ana təbiət başa düşülür. Odur ki, təbiətin, ətraf mühitin təmizliyi, mühafizəsi, atmosferin çirklənməsinin qarşısının alınması, yaşıllıqların qorunması, artırılmasına diqqət və qayğı hər birimizin müqəddəs borcudur.

Şabran respublikamızın dilbər guşələrindən biridir. Rayonun gözəl, füsunkar və əsrarəngiz təbiəti var. XVII əsr türk səyyahı və alimi övliya Çələbi yazmışdır: "Şabran saf havasına və şirin suyuna görə Təbrizdən sonra ikinci şəhər hesab olunur". Bu tanınmış alim tərəfindən verilən təsadüfi qiymət deyil. Azərbaycanın ən böyük şirin sulu gölü olan Ağzıbirçala, rayonun ucqar dağ kəndi Zeyvədə meşəliklərlə əhatə edilmiş ərazidə yerləşən füsunkar Əmbil gölləri Şabran ərazisindədir. Müalicəvi əhəmiyyətinə görə Truskavets kurortunun "Naftusiya" suyuna yaxın olan Qalaaltı suyu da bu yerlərin vizit kartıdır. Bu suya görə tikilən müasir "Qalaaltı Hotel SPA" dəniz səviyyəsindən 650-700 metr yüksəklikdə Çıraqqala dağlarının yamaclarında yerləşir. Ümumiyyətlə, rayonun relyefi olduqca rəngarəng və müxtəlifdir.

Şabran şəhər İcmasının İnkişafı üzrə Təlim və Resurs İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci il 1-ci qrant müsabiqəsində "Şabranda təmiz şəhər ekoloji sisteminin və floranın qurulması aksiyalarının təşkili" layihəsi üzrə qalib hesab edilmişdir. Birliyin sədri Tofiq Əmrahov deyir ki, layihənin həyata keçirilməsində əsas məqsəd Şabran şəhərinin küçə və məhəllələrinin, Dəvəçiçayın və Samur-Abşeron suvarma kanalının Şabran şəhərinin ərazisindən keçən hissəsinin hər iki sahilinin iməciliklər yolu ilə məişət tullantılarından təmizlənilməsi, yaşıllıqların salınması, ağacəkmə kampaniyalarına çağırış idi: "Şabran şəhərinin müxtəlif məişət tullantıları atılmış ərazilərinin dəqiq müəyyən edilməsi üçün baxış-monitorinq keçirmişik. Video-foto çəkilişi aparıldığı baxış-monitorinqdə Şabran Rayon İcra Hakimiyyətinin, Şabran Şəhər İcra Nümayəndəliyinin, Şabran Şəhər Yaşıllıq və Təmizlik İdarəsinin vəzifəli şəxsləri, habelə rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər".

Mənbəyini Böyük Qafqaz sıra dağlarının qar və buzlaqlarından alan Dəvəçiçay və ölkənin ən böyük suvarma şəbəkələrindən sayılan Samur-Abşeron kanalı Şabran şəhərinin mərkəzi hissəsindən keçməklə şəhəri iki hissəyə ayırır. Həmin ərazilərdə yaşayan bəzi fərdi yaşayış evlərinin sakinləri və burada yerləşən ticarət-kommersiya obyektlərinin sahibləri tərəfindən adıçəkilən ərazilər müxtəlif məişət tullantıları ilə zibillənir. Bu, müxtəlif infeksion xəstəliklərin yayılmasına, insanların sağlamlıq durumuna da mənfi təsir göstərir. T.Əmrahov dedi ki, aparılmış baxış-monitorinq nəticəsində müəyyən edilmişdir ki, müxtəlif məişət tullantıları ilə ən çox zibillənməyə məruz qalan ərazilər Dəvəçiçayın və Samur-Abşeron suvarma kanalının Şabran şəhərindən keçən hissəsinin hər iki sahilidir. Bu ərazilərdə yaşıllıqlar salmağı planlaşdırmışıq. Artıq tinglər əkiləcək ərazilər də müəyyənləşdirilmişdir.

Təəssüf ki, həyata keçirilən bütün profilaktik tədbirlərə baxmayaraq, ətraf mühitə, ekoloji duruma laqeyd və ögey münasibət bəsləyən vətəndaşlar hələ var. Odur ki, İctimai Birlik "Şabranda təmiz şəhər ekoloji sisteminin və floranın qurulması aksiyalarının təşkili" layihəsi çərçivəsində tədbirlərini davam etdirməyə qərar verib. Layihənin icra planına uyğun olaraq bir sıra idarə, müəssisə və təşkilatlarda ekoloji problemlərə dair maarifləndirici görüşlərin keçirilməsi, ekoloji təşəbbüslərə dair təbliğat plakatlarının hazırlanması, bukletlərin nəşr etdirilib əhaliyə paylanması nəzərdə tutulub. Bu kimi tədbirlər əhalinin ekoloji bilik və təsəvvürlərini genişləndirir, ekoloji durumunun yaxşılaşmasına stimul yaradır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Bura Azərbaycandır

# Lomonosovun «uşaqları»nın Qafqaz səyahəti

Təsadüf elə gətirdi ki, Moskvadakı M.V.Lomonosov adına Universititetin Jurnalistika fakültəsinin üç xanım məzunu səyyah kimi Azərbaycanı gəzib-dolaşmağa qərar verdilər. Onlardan biri Liliya ilə eyni kursda oxumuşduq, digəri Sveta isə bir kurs yuxarıda idi. Onun qızı Tatyana cəmi bir neçə il əvvəl universiteti bitirib. Liliya yazmışdı ki, görüşək, xatirələri vərəqləyək. Hər üçü dünyanın bir çox ölkələrini qarış-qarış gəziblər. Fikirləşdim, necə edim ki, Azərbaycan unikal bir məkan kimi tələbə yoldaşlarımın yadında qalsın, xatirələri zəngin olsun və yeni, əsrarəngiz bir ölkəni "kəşf etdiklərinə" sevinsinlər. Əslində, bu, ötən əsrin köhnə tanışlarının qəbul etməkdən daha çox eksperimentə bənzədi. Həm də maraqlı idi ki, görəsən səyyah yad ölkədə nədən zövq alır, nəyə maraq göstərir, ən gözəl xatirələri hansı təəssüratlardan doğur? Sadəcə, bir neçə günlük peşəmi dəyişdim və ölkəmi sevdirmək üçün nisbətən tələbkar və təcrübəli səyyahların bələdçisinə çevrilməyə qərar verdim.



### Evin tikilsin, "Uber"!

"Biz Bakıdayıq!!! Yerə endik, hər şey qaydasındadır. Kirayələdiyimiz mənzilin sahibi bizi qarşılayacaq, sən narahat olma" - SMS-i oxuyub vədələşdiyimiz kimi, axşam tərəfi zəngləşirik, deyirlər ki, Fəvvaralər meydanından taksi ilə yarım saata evə gələcəklər. Qarşılamağa gedirik, gecikirlər, aydınlaşdıranda məlum olur ki, taksi sürücüsü azıb və binanın yerini tapa bilmir! Statistika idarəsinin yanına gəlməkdənsə, gedib çıxıblar "Gənclik" metrosuna.

- Telefonu sürücüyə verin başa salım - deyirəm.

- Sürücü ilə danışa bilən deyilsən!

- Niyə? - təəccüblənirəm.

- Biz taksini beynəlxalq operator Uberə sifariş verdik. Onlar da dedilər ki, lal-kar sürücü var, istəyirsinizmi? Mərhəmət naminə razılaşdıq. O da gəzib dolaşır, ünvanı tapa bilmir. Nə biz onun dilini bilirik, nə də o bizim.

- Yaxşı yerinizdə qalın - deyib olduqları küçəni və binanın nömrəsini dəqiqləşdirərək ora yönümüzü tuturuq. Görüşürük, mühasirədən çıxan əsgərlər kimi sevincləri yerə-göyə sığmır!

Amma qəribə gələni odur ki, biz turistləri ölkəyə cəlb etmək, qazanmaq üçün əldən-ayaqdan gedirik, amma gələn valyutanın bir qismi turistlərə göstərilən xidmətlərə görə xarici şirkətlərə axır. Nəticədə turistlər də belə vasitəçilərə taksi, ev kirayələmək üçün müraciət edəndə 10-15 faiz uduzur, bir o qədər biz qazancımızdan itiririk. Məlum olur ki, qonaqlarım evi də "Uber" vasitəsi ilə tapıblar. İşin tərsliyindən onları qarşılayanlar yolda qəzaya düşüblər. Xanımlardan birinin başı möhkəm dəysə də, salamat qaldığına sevinir. Evin tikilsin, "Uber"!

- Gərək məsləhətləşəydiniz - deyirəm, - əsas odur ki, "Uber"dən canınızı qurtardız və mən sizi tapdım!

Sevincək maşına əyləşirlər. Qadın dünyanın harasında olursa-olsun, yenə də qadındır və bir qədər də qorxaqdır...

### Bir "qala"nın qonaqları

Çətinlikləri arxada qoyub evə gəlirik, hamı qonaqlarla görüşür, tanış olur. Onlar da şərqsayağı könül xoşluğu ilə hədiyyələrini təqdim edir, tanışlığa da ürəkdən sevinirlər.

Süfrəyə əyləşirik. Masanın başında evin böyüyü, qalanları da yaşına uyğun yuxarıdan aşağı əyləşirlər. Qonaqlara izah edirəm ki, bizdə min ildir ki, qaydalar belədir, istənilən məclisdə hər kəsin öz yeri olur. Liliya gülümsüyərək deyir: "Biz doğrudan da, özümüzü qədim və möhkəm qalanın qonağı kimi hiss edirik".

Süfrəyə xörəklər düzüldükcə bir-bir adlarını soruşurlar, maraqla nəzərdən keçirir, şəklini çəkir, Moskvada da mütləq bişirəcəklərini deyirlər. Nəyin tamını daddılarsa, dedilər ki, dadlıdır, bizdə ət, hətta mer-meyvənin fərqli dadı varmış. "Üçbacı" dolmasını az qala sənət əsəri kimi qarşıladılar!

Nəzakət xatirinə evdə içən olmasa da, çaxır şüşəsini oğluma verirəm ki, açsın. O da şüşəni əlinə alıb bir qədər çaşır, ingiliscə əmisi oğluna deyir ki, sən Allah tez yutuba bax gör bu andıra qalmışı necə açırlar?! Başqa dilə ona görə keçibmiş ki, qonaqlar onun çətinliyini başa düşməsin. Tələbə yoldaşım qəfildən şaqqanaq çəkib güləndə, anladım ki, ingiliscəyə keçmək oğlumu xilas etmədi. Nə baş verdiyini soruşuram.

- Biz oğlun şərab şüşəsini aça bilməyəndə bildik ki, sizin qalada içən də yox imiş. O bunu yutubdan öyrənmək istəyəndə gülməyimizi saxlaya bilmədik. - Sveta təəccübünü gizlətmir. - Bunu təsəvvür etmək belə mümkün deyil! Rusiyada, bizim tərəflərdə hər evdə heç nə olmasa da 5-6 ştopor tapılır. Yetkin gənclərin də şərab şüşəsini açmağa bir neçə variantı var.

Yeməkdən sonrakı çay süfrəsində çaytikanı çayı ilə şəkərbura elə təsir bağışladı ki, sanki ömürlərində belə süfrəyə oturmamışdılar. Hər naxışın necə düzülməsini, ədviyyatların adını təkrar-təkrar və sonsuz maraqla soruşurlar.

Açılmayan şərab şüşələrini göstərib deyirəm ki, içmədiniz.

- Artıq Brejnevin durğunluq vaxtları deyil! İndi hamı az içir, hamı işləyib ailəsini, özünü dolandırmalıdır!

İçki bir qədər arxa plana keçir.

- Ya biz qocalmışıq, ya da ki, Moskva əvvəlki deyil! - Sveta danışır: - Bax, son illər mən avtobusda ayaq üstə getmirəm, minən kimi, cavanlar ayağa durub yer verirlər. Əvvəlki Moskvanı sən tanıyırsan, kimsə kimin üçünsə ayağa durmazdı. Son vaxtlar bizim paytaxtda müsəlmanların sayı artıb, onlar da nəqliyyatda qadın görən kimi yer verirlər. Bu moskvalılara da təsir edib, indi bizimkilər də qadın görən kimi ayağa dururlar.

### Yanardağ - Odlar yurdunun şah əsəri

Gecə yarıdan keçəndə qonaqlara izah etdim ki, gəldikləri ölkə heyrətamiz və unikal tolerantlığı ilə seçilən məkandır. Əsrlər boyu bu ərazilərdə insanlar müxtəlif dinlərə etiqad ediblər; daşlara, pirlərə sitayiş ediblər, atəşpərəst olublar, xristianlığın dadına baxıblar və sonda islam dinini qəbul ediblər. Bələdçiliyimə başlayıram: "Mən sizi ən uzaq keçmişə zaman səyahətinə dəvət edirəm".

Tələbə yoldaşlarımla avtomobillərə oturub ilk ünvana - atəşpərəstlərin müqəddəs ocağı Yanardağa gedirik. Biz çatanda gecədən xeyli keçmişdi, qapı bağlı idi. Keşikçilərdən xahiş edib bir təhər içəri keçirik. Qonaqlar alışıb yanan dağı görən kimi bütün yorğunluqlarını bircə anda unudurlar, Feysbukda açıq yayıma girirlər ki, dostlardan kim oyaqdırsa, Yanardağın necə yandığını görsünlər. Bizim üçün adi görünən nə varsa, səyyah üçün qeyri-adidir, unudulmaz xatirədir!

Amma ətrafı nəzərdən keçirib özlüyündə fikirləşirsən ki, axı, Yanardağ Azərbaycan abidələrinin şah əsəridir və o gərək turistlərə daha maraqlı təqdim edilsin. Əslində, burda landşaft memarı işləməli, ətrafda nə varsa Yanardağla uzlaşmalı, vahid, harmonik bir vəhdət təşkil etməlidir. Yəni, yerə beton töküb, adi və kobud meydança yaratmaqla bu məkanın qənirsiz gözəlliyini və möhtəşəmliyini azaltmaq düzgün deyil. Azərbaycan Prezidenti İlham Əliyev ötən il dekabrın 29-da "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna baş çəkərkən bircə kəlmə ilə demişdi ki, buradakı şərait ölkəmizin bugünkü inkişaf səviyyəsinə uyğun deyil! Bu, ədalətli iraddır. Dənizkənarı Milli Park Bakı üçün nədirsə, Yanardağ ondan daha böyük dəyəri özündə əks etdirən qədim və müqəddəs bir abidədir.

Dövlət başçısı da ciddi tapşırıq vermişdi ki, bu dözülməz vəziyyət qısa müddət ərzində aradan qaldırılsın. Aidiyyəti qurumlar təbii ki, Prezidentin sərt mesajından hərəkətə gəliblər və ciddi hazırlıq tədbirləri görülür. O da maraqlıdır ki, İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari romalı memarların "Yanardağ"ın bərpasını təklif etdiklərini, hətta layihə də hazırladıqlarını bildirib. Ən vacibi odur ki, dövlət başçısının iradından sonra Yanardağ yeni layihə əsasında işləniləcək, mükəmməlliyədək cilalanaraq və heç kimin təsəvvür etmədiyi əsrarəngiz bir görkəm alacaq.

Biz xalq kimi bu atəşdən baş qaldırmışıq, bu alovun dillərindən keçib sonrakı dinlərə isinmişik. Açıq səma altında ən nadir məkan kimi yüz minlərlə səyyahın diqqətini özünə cəlb etmək gücünə qadir olan bir yer əsas iş vaxtı - gecələr bağlı qalmalı deyil!

### Qubaya əcnəbilər də heyran qaldı, biz də

Səhərisi səyyah yoldaşlarımla ölkənin şimalına yola düşürük. Deyirlər ki, "Uber"dən taksi alaq. Soruşuram ki, qəfil qəza üçün darıxdız, yoxsa lal-kar sürücü üçün? Başınıza məcara axtarmağı sevirsiz? Unudun, artıq bu gündən sizin "Uber"iniz mənəm. Razılaşırlar.

Qubada gördüklərinə məəttəl qaldılar, inanmaq çətindir, dedilər: "Bizdə belə kiçik şəhərlərdə həyat tamamilə fərqlidir. Müasir, göz oxşayan, istənilən böyük şəhərə yaraşıq verən belə binalar tikilmir". Vaxtın azlığından bir az Qubanı dolaşırıq, şəhərin mərkəzindəki qədim parkdan alman əsirlərinin İkinci Dünya müharibəsindən sonra tikdikləri məşhur pilləkənlərlə dağ yəhudilərinin kompakt yaşadıqları Qırmızı qəsəbəyə düşürük. Müasir və bahalı binalar, yəhudilərin buranı "kiçik Yerusəlim" adlandırması əcnəbilərə qəribə təsir edir. Sən demə, Yer üzündə yəhudilərin kompakt yaşaya bildiyi ikinci məkan var imiş!

Oradan isə dağlara sarı yola düşürük. Yol boyu gördüklərimiz qonaqlardan çox mənim özümü çaşdırdı. 3 il əvvəl keçdiyim yolun üstündəki kəndlərin siması elə tanınmaz dərəcədə dəyişib ki, gördüyümüz yeniliklərə inanmaq qeyri-mümkündür. Hər kənddə tikilən müasir, gözəl və istənilən əcnəbinin həsəd apara biləcəyi saysız yaşayış evləri var. Kənddən-kəndə adladıqca sanki hansısa bir xarici ölkədəsən. Qonaqlar isə təəssüflə Rusiyada Yer üzündən silinməkdə olan minlərlə kəndi xatırlayırlar.

Qoşa minarə adlı yerdə dağı yarıb içindən keçən Qudyalçayın səsinə qulaq asıb, özlərini ədəbli aparmaqda çətinlik çəkən ərəblərlə yan-yana durmamaq üçün yolumuza davam edirik. Yolun üstündə sısqa şəlalə ilə salamlaşırıq, qaba doldurduğumuz suyu maşına qoyub, arxamızca gələn ərəblərlə rastlaşmamaq üçün tez yolumuza davam edirik. Qırız Dəhnə kəndinin ortasında maşından yerə enirik.

### Qırızlılara həsəd aparan meksikalı gəlin

Zirvələrin arasında uyuyan dağ kəndinin iri daşlarla örtülən yamacında qonaqlara Quba tolerantlığından danışıram ki, burada bir neçə kəndin hərəsinin öz dili, öz mədəniyyəti, fərqli adətləri var. Hər kənd kiçik bir xalq, zirvələrdə qərar tutan cırtdan ölkə kimidir. Qırız Dəhnə kəndi də belə yaşayış məskənlərindən biridir. Qırızlılar bu gün də dillərini, mədəniyyətlərini qoruyub saxlaya biliblər. Bütün dağ kəndlərinə xas olan qədim və bu gün də bir çox kəndlərdə qorunan bəzi adətlərdən səyyah tanışlarıma danışıram. Qız ərə köçəndə başını bağlayır, ağzına yaşmaq vurur. Əvvəllər bu adətlər daha sərt olub və ərə köçən qız illərlə qayınatasının, qayınlarının yanında ağzını açıb danışmayıb.

- Nə gözəl adətdir! - deyib qonaqlardan ən cavanı Tatyana gülümsəyir. Həyat yoldaşı meksikalı təyyarəçidir. Tayvanda yaşayırlar. Təəccüblənirəm, axı, mümkün deyil ki, moskvalı gənc qız belə adətə qol qoysun: - Bəyənirsiz? - soruşuram. Fikirləşirəm ki, bəlkə meksikalılarda da buna bənzər bir adət var.

- Niyə də yox! - cavab verir. - Əlbəttə, bəyənirəm amma təəssüf ki, ispanlarda belə bir adət yoxdur. Meksikalı qayınanama bu adəti təlqin edib bəyəndirmək mümkün olsaydı, sevinərdim. Başını bağlayardı, ağzına yaşmaq vurub susardı, biz də heç olmasa, bir neçə il sakit yaşayardıq!

### Turqutun ilk məhəbbəti və qərib kilsə

Qardaşım Sənan bizi dağlardan dönəndə zorla evinə aparır ki, bir stəkan çay içməsək, olmaz! Qubada maşını bir bükməçinin qabağında saxlayır, xanımlar da düşüb maraqla baxırlar. Quba bükməsi ilə paxlava alıb, qardaşımgildə çay süfrəsinə əyləşirik. 7 aylıq oğlunun gözəlliyinə qadınlar heyran qalır, qucaqlarından yerə qoymurlar. Turqut isə ən cavanı olan Tanyanın qucağından əl çəkmir, öz "qarğa dilində" nəsə danışır, qəşş edir, utanır və üzünü yana çevirir. Amma hələ heç kim bilmir ki, qonaqlar gedəndən sonra Turqut qapının ağzında oturub bəs qədər dallarınca ağlayacaq, yalnız telefonda Tanya ilə şəklini görəndən sonra kiriyəcək. Tatyana da ona Tayvandan "Darıxma, Turqut, mən yenə gələcəyəm" yazıb şəkillərini atacaq...

Vaxtın azlığından bir tikə çörək kəsirik, tələsik süfrədən durub yolumuza davam edirik. Kəndimizdən keçəndə yadıma düşür ki, qonaqlara bir kilsəni ziyarət etməyi vəd etmişdim. Xucbalaya dönüb, kəndin mərkəzindəki xristian kilsəsinin yanında düşürük. Qonaqlara kəndimizin tərcümeyi-halının XVII əsrdən başladığını deyirəm. Azərbaycan İranla Rusiya arasında bölündükdən sonra bu ərazilərə xristianların köçü başlayır. Xucbala kəndinin alt tərəfində də onlara ən yaxşı torpaqlar ayrılır və ruslar burada kök salıb kilsə ucaldırlar. Kəndimizin acı taleyi olur, imperatorun qəzəbinə tuş gələn xuclular birbaşa onun fərmanı ilə Muğanın ilan mələyən çöllərinə sürgün edilir. Rusların da bəxti bu kənddə gətirmir. Birinci Dünya müharibəsində kişiləri səfərbərliyə alırlar, qadın və uşaqlar isə tif xəstəliyinə yoluxaraq qırılmağa başlayır. Ruslar azərbaycanlıların sürgün olunduğu kəndi lənətlənmiş məkan kimi öz arzuları ilə tərk edib Xaçmaza köçürlər. İmperatorun sonralar əfv etdiyi kənd camaatı tədricən Xucbalaya qayıtsalar da, kilsəyə toxunmur və 100 ildən artıqdır ki, onu abidə kimi qoruyurlar.

Lomonosovun "uşaqları" heyrətamiz səhnə ilə qarşılaşırmış kimi, kilsəni seyr edirlər. Danışmadan, dinmədən yaxınlaşıb əllərini onun taxta divarlarına söykəyərək dayanırlar. Təəssüflənirəm ki, kaş ki, bizim 75 yaşlı fotoqrafımız Ağaəli Məmmədov burada olaydı. O, belə gərgin, dramatik məqamların həyəcanını sənətkar kimi "açmaq" gücünə qadirdir.

Durmadan şəkillər çəkərdi və sonra redaksiyada qadınlardan birinin üzünün iri planda kirpiyindən asılan bir damla göz yaşı ilə şəklini verərdi ki, bunu yazına qoy...

Onlar kilsənin divarından əllərini götürəndə sanki fərqli insanlar idi, sadəcə bircə onu dedilər ki, siz necə də gözəl xalqsınız...

### Lermontov və birayaqlı stəkan

Qusarda Lermontovun ev-muzeyini ziyarət edib, sakit və təmiz Şərq şəhərinin küçələrini dolaşırıq. Qonaqlarımıza danışıram ki, ölkə əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil etsə də, burada əhalinin çoxu ləzgidir. Qaynayıb-qarışmışıq, güclü qohumluq əlaqələrimiz var. Şəhər də, insanlar da gözəlliyi ilə rusiyalı səyyahlara zövq verir: "Nə gözəl qadınları var" - deyirlər. Olimpiya idman kompleksi, "Şahdağ" Qış Turizm Mərkəzi haqqında dediklərim qonaqları təəccəbləndirir: "Sizin ən ucqar rayon da müasir şəhər təsiri bağışlayır" - deyirlər.

Şam yeməyinə elə bu rayondakı restoranlardan birinə gəlirik. Menecer nəzakətlə bağı gəzdirir ki, özümüz ürəyimizə yatan guşəni seçək. Ofisiant isə işimizə yaramaq üçün əldən-ayaqdan gedir. Süfrənin qırağında kiçik ləkəni görən kimi göz qırpımında dəyişdirir, səliqə ilə qab-qacağı elə düzür ki, heç kimi narahat etməsin.

Nə gəlirsə süfrəyə, zarafatyana deyirəm ki, ləzgi xörəyidir. Tatyana soruşur ki, axı, biz Bakıda qutab, kabab yedik, orda bizə dedilər ki, Azərbaycan xörəkləridir. Ləzgi kababı, ləzgi qutabı Azərbaycan qutabı və kababından nə ilə seçilir?

İzah edirəm ki, biz qaynayıb qarışmış iki xalqıq, Allahımız birdir, xörəklərimizin əksəriyyəti eynidir, düzdür fərqli olanı da var. Əgər xörəkləri azərbaycanlı bişiribsə, deməli, süfrədə Azərbaycan xörəkləridir. Burada aşpazlar ləzgidir, deməli, nə bişirsə, ləzgi xörəyidir!

Evdə aça bilmədiyimiz şərab şüşəsini süfrəyə qoyuruq. Ofisianta deyirəm ki, badə gətirsin. Çaşır, qaşlarının çatılmasından bilirəm ki, nəsə başa düşmədi. Qədəh deyirəm, yenə anlamır, ofisiant lap çətinə düşür: "Ay oğul, şərab içməyə bokal gətir" - deyəndə qəliz tapmacanı tapan uşaqlar kimi sevinir: "Can xalu (can dayı), əşi bunu bayaqdan deyin ki, sizə birayaqlı stəkan lazımdır!"

Tələbə tanışlarıma "birayaqlı stəkan" ifadəsini tərcümə edirəm, doyunca gülürlər...

Gecə geriyə dönürük. Yol boyu Xəzərin sularından səmalara ucalan ay bizi Bakıyadək müşayiət edir. Bir neçə gündən sonra Lomonosovun üç məzununu Moskvaya yola saldım. Gələndə tələbə yoldaşı kimi gəlmişdilər, gedəndə qardaş deyib ayrıldılar. Məxsusi dedilər ki, Azərbaycana, insanlara, adət və ənənələrinizə heyran qaldıq. Yaşadığımız hər saat bir əfsanə idi.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# XXI Dünya çempionatı






# ƏZMKARLIQ



**İsveç - İsveçrə - 1:0**
*Qol: Emil Fosberq, 66*
*Sankt-Peterburq. Sankt-Peterburq stadionu*

Güclü rəqiblərlə mübarizədən sonra qrup mərhələsini adlayan bu komandaların növbəti mərhələyə çıxmaq imkanları təxminən eyni idi. Düzdür, isveçrəlilərlə müqayisədə İsveç futbolçuları müdafiəyə daha çox fikir vermələri ilə seçilir və mundialda 5 qoldan 2-ni penaltidən vurublar. Seçmə mərhələdə 8 qola imza atan Markus Berqin susqunluğu da diqqət çəkir. Həm də bu il keçirdikləri 7 oyunun 2-də qələbə qazanıb, 2-ni heç-heçə edib, 3 görüşdə məğlubiyyətə uğrayıblar. İsveçlilər qeyri-sabit nəticələrlə fərqlənsələr də, F qrupunda lider olmaları göstərir ki, onlardan hər sürprizi gözləməyə dəyər. Belə də oldu.

Özü də hər iki rəqib üçün 1/4 finala yüksəlmək böyük uğur sayılacaqdı. İsveçlilər bunu sonuncu dəfə DÇ-1994-də (4-cü yeri tutublar), isveçrəlilər isə DÇ-1954-də bacarıblar. Rəqiblərin son 20 ildə cəmi iki dəfə qarşılaşması da maraqlı faktdır. 2001-ci ildə İsveçrə öz meydanında İsveçə məğlub olsa da (0:2), növbəti il Malmödə keçirilən yoldaşlıq oyunu bərabərliklə başa çatıb (1:1).

Sloveniyalı referi Damir Skominanın idarə etdiyi görüşdə komandaların cəhdlərinə baxmayaraq, ilk hissədə qapılara top vurulmayıb. Fasilədən sonra Skandinaviya təmsilçiləri istəklərinə çatıblar. Oyunun 66-cı dəqiqəsində isveçlilərin hücumu zamanı Emil Fosberqin qüvvətli zərbəsindən sonra top müdafiəçiyə toxunaraq istiqamətini dəyişdiyindən qapıçı üçün əlçatmaz olub - 1:0. Bu, oyunda yeganə qol olub və matç İsveç yığmasının qələbəsi ilə başa çatıb.



# ADDIM-ADDIM FİNALA

**Kolumbiya - İngiltərə - 1:1 (əlavə vaxt)**
*Qollar: Yerri Mina, 90+3 - Harri Keyn, 57 (pen.)*
*Penaltilər seriyası: 3:4*
*Moskva. "Spartak" stadionu*

Günün maraqlı qarşılaşması Kolumbiya və İngiltərə yığmaları arasında oldu. Kolumbiya millisi yeganə komandadır ki, bu mundiala məğlubiyyətlə başlasa da, 1/8 finala çıxa bilib. İlk oyunun 3-cü dəqiqəsində azlıqda qalmaları səbəbindən yaponlara uduzan (1:2) kolumbiyalılar sonra Polşa (3:0) və Seneqal (1:0) komandalarını məğlub etməyi bacarıblar. DÇ-2014-də 1/4 finala çıxaraq ən yüksək nailiyyətinə imza atan komandanın bu uğuru təkrarlaması asan olmayacaqdı.

Kolumbiyalılar topu orta xətdə daha çox saxlamaları ilə fərqlənsələr də, rəqibinin heyətində son matça kimi 5 qolla hazırda mundialın bombardiri olan Harri Keyn kimi futbolçu var. Mundialın yaşca ən gənc komandalarından olan ingiltərəlilər ikinci heyətlə belçikalılara məğlubiyyətdən əvvəl ardıcıl 4 oyunda qələbə qazanmaları ilə yadda qalıb.

ABŞ-lı referi Mark Qeyqerin idarə etdiyi görüşə daha fəal başlayan ingilislər Harri Keynin 57-ci dəqiqədə penaltidən vurduğu qolla hesabda irəli çıxdılar. Qoldan sonra tədricən topa daha çox sahib olmağa çalışan kolumbiyalılar pressinq tətbiq edərək İngiltərə komandasının oyun qurmasına çətinlik yaratdılar. Qurulan hücumlar, sağ və sol cinahlardan edilən sürətli ötürmələr görüşün son dəqiqəsində bəhrəsini verdi. Hamı İngiltərə futbolçularının 1/4 finala vəsiqə qazandığını düşündüyü bir vaxtda Yerri Mina hesabı bərabərləşdirdi - 1:1.

Nəticədə əlavə edilən 30 dəqiqədə də qalib müəyyənləşmədi. Penaltilər seriyasında daha dəqiq olan İngiltərə komandası 4:3 hesabı ilə qalib gələrək dörddəbir finala yüksəldi.

Beləliklə, iyulun 3-də Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatının 1/8 final mərhələsinə yekun vuruldu. Mundialın 1/4 final mərhələsinin görüşləri iyulun 6-7-də keçiriləcəkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***





# "20 qol da vura bilərdik"

**"Nəticə ədalətlidir. Bizim minimum 20 qol vurmaq şansımız oldu. Amma Yaponiyanı təbrik etmək lazımdır. Onlar oyuna çox gözəl hazırlaşdılar və qəflətən bizə 2 qol vurdular. Bundan sonra oyunçularım əsl xarakter nümayiş etdirdilər. Hansısa taktiki qərarlardan və sxemlərdən danışmaq istəmirəm. Oyunçularım öz iradələri hesabına qalib gəldilər".**

Bu sözləri Belçika millisinin baş məşqçisi Roberto Martines DÇ-2018-in 1/8 finalında Yaponiyaya 3:2 hesabı ilə qalib gəldikləri oyundan sonra keçirilən mətbuat konfransında deyib.

"Həlledici qolu vurduğumuz vaxt böyük qüvvə ilə əks-hücum etdik. Bu, cəmi 6 saniyəyə oldu və qələbə qolunu vurduq. Məhz dünya çempionatları oyunlarında bu cür qələbə qazanılır" - deyə o bildirib.

R.Martines 1/4 finalda qarşılaşacaqları Braziliya haqda da danışıb: "Braziliyaya qarşı necə oynayacağıq? İlk növbədə rəqiblərdən heç də pis olmadığımızı anlamalıyıq. Bu, ən vacib amildir. Biz favorit deyilik, buna görə heç bir psixoloji təzyiq olmayacaq. Oyunun hər saniyəsindən zövq alacağıq. Braziliyaya qarşı 1/4 finalda oynayacağıq. Bu, əsl yuxudur".

# Argentinada istefalar



**DÇ-2018-lə 1/8 finalda vidalaşan Argentina millisində bir sıra ayrılıqlar olub. Fransaya 3:4 hesablı məğlubiyyətlə evə dönməyə məcbur olan "tanqoçular" gözlənildiyi kimi baş məşqçi ilə vidalaşıb.**

Argentina Futbol Assosiasiyasının (AFA) rəhbərliyi baş məşqçisi Xorxe Sampaolini istefaya göndərib. 58 yaşlı mütəxəssis bu barədə məlumatlandırılıb.

Ayrılıq tək baş məşqçi ilə yekunlaşmayıb. Belə ki, Fransaya məğlubiyyətdən sonra futbolçular Lukas Biliya və Xavyer Maskerano da Argentina yığması ilə vidalaşdıqlarını açıqlayıblar.

Xatırladaq ki, Xorxe Sampaoli ilə 2017-ci ildə bağlanılmış müqavilə 5 ilədək nəzərdə tutulmuşdu.

# Löv vəzifəsində qalır

**Futbol üzrə Almaniya yığmasının baş məşqçisi Yoahim Löv vəzifəsində qalacaq. Bu barədə Almaniya Futbol İttifaqının (DFB) mətbuat xidməti xəbər verir.**

Xatırladaq ki, bir həftə öncə Almaniya millisi ilk dəfə dünya çempionatında qrup mərhələsini adlaya bilməyib.

Cari ilin may ayında Rusiyada dünya çempionatı başlamazdan əvvəl 58 yaşlı məşqçi ilə kontrakt 2022-ci ildə Qətərdə keçiriləcək mundialadək uzadılmışdır.



# KAVANİ oynayacaqmı?

**Uruqvay millisinin futbolçusu Edinson Kavaninin son durumu müəyyənləşib.**

Uruqvay Futbol Federasiyasınınn yaydığı xəbərə görə, 31 yaşlı hücumçunun zədəsi ciddi deyil. Onun DÇ-2018-in 1/4 finalında Fransaya qarşı oynamağının mümkün ola biləcəyi vurğulanıb.

E.Kavani 1/8 finalda Portuqaliyaya qarşı görüşdə (2:1) zədələnib.



# NEYMARDAN iddialı açıqlama

**"Matçın ən yaxşı oyunçusu olduğumu hesab etmirəm. Bu qələbə bütün komandanın xidmətidir. Dünya çempionatında mübarizəni davam etdirdiyimiz üçün sevinirik.**

Oyunumdan məmnunam. Kuboku qazanmaq üçün buradayam". Xarici KİV-in yaydığı xəbərə görə, bu sözləri Braziliya millisinin futbolçusu Neymar DÇ-2018-in 1/8 finalında Meksikaya 2:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə yüksəldikləri görüşü şərh edərkən deyib.

26 yaşlı hücumçu onu özünü yerə atmaqda ittiham edən meksikalı azarkeşlərə də cavab verib: "Meksikalılar çox danışır. İndi onlar evlərinə gedirlər".

# Şəkidə musiqi bayramı

## *“İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalı musiqisevərlərə xoş bayram ovqatı bəxş etdi*

Ölkəmizin qədim mədəniyyət mərkəzlərindən olan Şəki yenə də bayram ovqatına kökləndi. Növbəti musiqi bayramı - Şəki “İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalı iştirakçıların xatirələrində silinməz izlər buraxdı.



İyunun 27-dən iyulun 1-dək keçirilməsi nəzərdə tutulan beynəlxalq festivalın “müqəddiməsi” olaraq bu il iyunun 25-də Azərbaycan Bəstəkarlar İttifaqında kamera konserti oldu, sərgi düzənləndi. “İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalında iştirak edən xarici ölkələrin nümayəndələri gənc rəssamların əl işlərindən ibarət sərgiyə baxdılar. Azərbaycanın gənc bəstəkarlarının əsərlərindən ibarət kamera konserti ilə festivalın “müqəddiməsi” daha da yaddaqalan oldu.

Nəzərdə tutulduğu kimi, iyunun 27-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şəki “İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalına start verildi. Tədbirin təntənəli açılış mərasimi “Marxal” müalicə-istirahət kompleksinin Yay Teatrında keçirildi.

Festivalın bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, UNESCO-nun Sülh artisti Firəngiz Əlizadə çıxış edərək möhtəşəm musiqi bayramı kimi gözəl bir ənənəyə çevrilən və artıq doqquzuncu dəfədir keçirilən Şəki “İpək Yolu” Beynəlxalq Musiqi Festivalının bu dəfə də şəkililərə və qonaqlara unudulmaz anlar yaşadacağını vəd etdi. O, Şəki “İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalının çox əlamətdar vaxtda keçirildiyini diqqətə çatdırdı: “2018-ci il bir sıra yaddaqalan hadisələrlə zəngin olub. Prezident seçkiləri dövlət başçısı İlham Əliyevin parlaq qələbəsi ilə nəticələnib. Ulu öndər Heydər Əliyevin 95 illiyi, dahi bəstəkar Qara Qarayevin 100 illiyi və nəhayət, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi möhtəşəm tədbirlərlə qeyd olunur. Festivalın proqramında da vətənimizin tarixində iz qoymuş, ölkəmizin siyasi, iqtisadi, ictimai həyatına təsir edən, eləcə də Azərbaycanın hər bir vətəndaşı üçün mühüm əhəmiyyətə malik olan bütün bu hadisələrin mənzərəsini əks etdirməyə çalışmışıq”.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov isə qeyd etdi ki, Şəki beynəlxalq festivalların keçirilməsi üçün gözəl məkandır, bura “festivallar şəhəri” kimi tanınır. O, hər ilin yayında keçirilən və artıq ənənəyə çevrilən “İpək Yolu” Beynəlxalq Musiqi Festivalının Şəkinin mədəni həyatında çox böyük hadisə olduğunu, musiqisevərlərin yaddaşında gözəl xatirə kimi qaldığını vurğuladı.

Rəsmi hissədən sonra Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin konserti təqdim olundu.

Beş gün davam edən festival çərçivəsində musiqisevərlərə, şəhərin qonaqlarına, yerli sakinlərə Türkiyə, Rusiya, Macarıstan və Qazaxıstandan gəlmiş rəqs və musiqi qruplarının, eləcə də Azərbaycanın tanınmış teatr və musiqi kollektivlərinin çıxışları təqdim olundu.

Festivalın təntənəli bağlanış mərasimi iyulun 1-də axşam “Marxal” istirahət kompleksinin Yay Teatrında keçirildi. Tədbirdə festivalın təşkilatçı qurumlarının, həmçinin Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un rəsmiləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

TÜRKSOY-un yaradılmasının 25 illiyinə həsr olunan tədbirdə bu beynəlxalq təşkilata üzv ölkələrdən olan solistlərin iştirakı ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Qazaxıstanın Atırau Dövlət Filarmoniyasının “Murager” mahnı və rəqs ansamblı birgə konsert proqramı ilə çıxış etdi. Təqdim olunan musiqi nömrələri, xalq mahnıları tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı.

Festivalın bədii rəhbəri Firəngiz Əlizadənin sonda bildirdiyi kimi, Azərbaycanın qədim diyarı olan Şəkidə daha bir beynəlxalq festivalın son akkordları çalındı. Bağlanış mərasimində çıxış edənlər Şəki “İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalının keçirilməsində əməyi olan bütün qurumlara, xüsusilə Azərbaycan Bəstəkarlar İttifaqının rəhbərliyinə təşəkkürlərini dilə gətirdilər.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov Şəkidə keçirilən “İpək Yolu” Beynəlxalq Musiqi Festivalının Türk dünyasında təşkil edilən ən önəmli festivallardan biri olduğunu nəzərə çatdırdı.

Festivalın bağlanış mərasimi atəşfəşanlıqla başa çatdı.

Təşkilatçılarının qabaqcadan vəd etdikləri kimi, Şəki “İpək Yolu” IX Beynəlxalq Musiqi Festivalının proqramı çox maraqlı və rəngarəng oldu. Ecazkar təbiət qoynunda müxtəlif mədəniyyətlərin qovuşduğu bu məkanda yenə də dünya musiqi sənətinin parlaq nümunələrindən ibarət konsert proqramları təqdim edildi, musiqisevərlərə xoş bayram ovqatı bəxş olundu.

Qeyd edək ki, son illər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin əhəmiyyəti böyükdür. Doqquzuncu dəfə düzənlənən “İpək Yolu” Beynəlxalq Musiqi Festivalı da Azərbaycanın qədim, gözəl məkanlarından olan Şəki şəhərinin tarixi və mədəniyyəti, dünya xalqlarının folklor musiqisinin qorunub saxlanması, təbliği baxımından təqdirəlayiqdir.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# “Bakı Kristal Zalı” MMC

## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir

**LOT 1 Xidməti avtomobilin alınması**

Açıq tenderdə iddiaçı qismində Azərbaycan Respublikasının ərazisində bu cür xidmətləri göstərməyə lisenziyası olan yerli və xarici şirkətlər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri AZ 1003, Səbail rayonu, Bayıl qəsəbəsi, Dövlət Bayrağı Meydanı (tel.: (+994 12) 404 31 52, faks nömrəsi: (+994 12) 404 31 53) ünvanından əldə edə bilərlər.

**İştirak haqqı: 150 (yüz əlli) manat**

**“Bakı Kristal Zalı” MMC**

| | |
|---|---|
| **Hesablaşma hesabı:** | AZ16UBAZ04285159640060AZN001 |
| **VÖEN:** | 1701377101 |
| **Bank:** | UNİBANK KB ASC YASAMAL FİLİALI |
| **Kod:** | 507666 |
| **Müxbir hesab:** | AZ46NABZ01350100000000015944 |
| **VÖEN:** | 1300017201 |
| **S.W.İ.F.T.BIK. :** | UBAZAZ22 |

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*6. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
*7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*8. İddiaçının analoji xidmətlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
*9. Digər sənədlər: tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
*10. Tender təklifi (texniki və maliyyə təklifləri). Tenderin maliyyə təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*11. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 2 nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə xidmətlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 12 (on iki) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

a) iddiaçı tərəfindən müvafiq xidmətin göstərilməsinə dair təklif olunan üsullar və yanaşma, işin təşkili və idarə edilməsi ilə bağlı təkliflər;
b) göstəriləcək xidmətin dəyəri.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 06 avqust 2018-ci il tarixinə qədər (saat 17:00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 15 avqust 2018-ci il tarixinə qədər (saat 17:00-dək) Bakı şəhəri AZ 1003, Səbail rayonu, Bayıl qəsəbəsi, Dövlət Bayrağı Meydanı ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 avqust 2018-ci il tarixdə (saat 15:00-da) Bakı şəhəri, AZ1003, Səbail rayonu, Bayıl qəsəbəsi, Dövlət Bayrağı Meydanı ünvanında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# ELAN

“İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 319s nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğv edilməsi məqsədilə Ləğvetmə komissiyası yaradılmışdır.

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kreditor borcları olan hüquqi və fiziki şəxsləri öz tələblərini 18 may 2018-ci il tarixdən 18 iyul 2018-ci il tarixədək Ləğvetmə komissiyasına bildirə bilərlər.

**VÖEN: 1400386271**
**Hüquqi ünvan: AZ1147, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küçəsi, 124**
**Əlaqə telefonu: (012) 449-99-59 (daxili 121)**

*Ləğvetmə komissiyası*

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### AFR Kansleri və DİN başçısı miqrasiya məsələsi ilə bağlı razılığa gəldilər



AFR Kansleri Angela Merkel və Almaniyanın daxili işlər naziri Horst Zeyehofer miqrasiya məsələsi ilə bağlı razılıq əldə etmişlər. Bu barədə “Alman dalğası” radiostansiyası xəbər verir.

“Xristian Demokrat İttifaqı” (XDİ) və “Xristian Sosial İttifaqı (XSİ) ilə intensiv danışıqlardan sonra tərəflər gələcəkdə Almaniya və Avstriya sərhədində qeyri-leqal miqrasiyanın qarşısını necə almaq barədə razılığa gəlmişlər” - deyə Zeyehofer məlumat vermişdir. O, istefaya getmək niyyətindən imtina etdiyini bildirmişdir.

Merkel “yaxşı kompromis” əldə etdiyini vurğulamışdır. Onun dediyinə görə, kompromis Almaniyada qaçqınlar üçün tranzit mərkəzlərinin yaradılmasını nəzərdə tutur. “Nəticədə Avropa İttifaqında tərəfdaşlıq ruhu qorunmuşdur və eyni zamanda ikinci miqrasiyanın qaydaya salınması üzrə həlledici addım atılmışdır” - deyə Kansler qeyd etmişdir.

Avropa İttifaqının digər dövlətlərində qeydə alınmış miqrantlar qısa müddətə tranzit mərkəzlərində yerləşdirildikdən sonra Aİ-nin müvafiq ölkələrinə göndərilə biləcəklər.

### İndoneziyada yenidən sərnişin gəmisi batdı



Dünən İndoneziyanın Sulavesi adası yaxınlığında faciə baş vermişdir. Göyərtəsində 140 sərnişin olan gəmi batmışdır. Bu barədə “Assoşieyted Press” agentliyi xəbər verir.

11 nəfərin həlak olduğu bildirilir. 30 adamın həyatını xilas etmək mümkün olmuşdur. Gəmi sahilin 200 metrliyində qəzaya uğramışdır.

Xatırladaq ki, ötən ayın 17-də İndoneziyanın Sumatra adasındakı Toba gölündə göyərtəsində 200 sərnişin olan gəmi batmışdı. Həmin vaxt təxminən 20 nəfəri xilas etmək mümkün olmuşdu.

### Ermənistanda sabiq müdafiə naziri axtarışa verildi



Ermənistanın sabiq müdafiə naziri Mikael Arutyunyan 2008-ci ilin martında Yerevanda baş vermiş iğtişaşlarla bağlı iş üzrə axtarışa verilmişdir. Bu barədə “Rosbalt” agentliyi xəbər verir.

İşlə bağlı ittihamlar təkcə Arutyunyana deyil, digər bir sıra şəxslərə qarşı da irəli sürülmüşdür. Xatırladaq ki, 2008-ci il martın 1-2-də Ermənistanda prezident seçkiləri keçirildikdən sonra paytaxtın mərkəzində iğtişaşlar olmuşdu. Prezidentliyə namizəd Levon Ter-Petrosyanın tərəfdarları onun məğlubiyyəti ilə barışmayaraq etiraz aksiyaları keçirəndə onlara qarşı odlu silah işlədilmişdi. İndiyədək bu cinayətə görə heç kəs cəzalandırılmamışdır.

### 2018-ci ilin 6 ayında dünyada 66 jurnalist həlak olmuşdur



Cari ilin 6 ayı ərzində dünyanın 22 ölkəsində 66 jurnalist həlak olmuşdur. Bu barədə “Press Emblem Campaign” (PEC) qeyri-hökumət təşkilatının Cenevrədə dərc olunmuş hesabatında məlumat verilir. PEC münaqişə zonalarında KİV əməkdaşlarının təhlükəsizliyinin təmin olunması üçün dünya birliyini səmərəli tədbirlər görməyə çağırmışdır.

Qeyd olunur ki, 2018-ci ilin yanvar-iyun aylarında 22 ölkədə 66 jurnalist öldürülmüşdür. Bu, ötən ilin həmin dövrü ilə müqayisədə təxminən 30 faiz çoxdur.

Sənəddə bildirilir ki, göstərilən müddətdə Əfqanıstanda 11, Meksikada 8, Suriyada 7, ABŞ-da 6, Yəməndə 5 jurnalist həlak olmuşdur. Təşkilat həmçinin Hindistanda 4 jurnalistin qətlindən dərin narahatdır. 3 reportyor Braziliyada və 3 jurnalist Ekvadorda və Filippində, 2 KİV əməkdaşı Qəzzə bölməsində, 2-si Qvatemalada, 2-si Pakistanda, digərləri Banqladeşdə, Kolumbiya, Haitidə, İndoneziya, İraq, Liberiya, Nikaraqua, Rusiya, Salvador və Slovakiyada qətlə yetirilmişdir.

“PEC bu hücumları qətiyyətlə pisləyir və hökumətləri cinayətkarları məsuliyyətə cəlb etməyə çağırır” - deyə hesabatda vurğulanır.

# Sərhəd təhlükəsizliyinin təminatı yüksək səviyyədədir

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.

DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində iyun ayının ikinci yarısında 4 şəxsin saxta sənədlərlə, 3 nəfərin özgəsinə məxsus sənədlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınmışdır.

15 iyun tarixində Bakı-Riqa-Stokholm reysi ilə tranzit uçan 1987-ci il təvəllüdlü İraq vətəndaşı Omar Ahmed Hasaballahın İsveçin daimi yaşayış kartının özgəsinə məxsus olması aşkar edilmişdir.

19 iyun tarixində Dubay-Bakı reysi ilə gələn RF vətəndaşı 1992-ci il təvəllüdlü İnalov Umar Alxamidoviçin sərhəd nəzarətinə təqdim etdiyi RF pasportunun məlumat səhifəsinin dəyişdirilməsi yolu ilə saxtalaşdırılması müəyyən edilmişdir. Saxlanılmış şəxsin üzərindən əlavə Ukraynaya da məxsus saxta pasport aşkarlanmışdır. Araşdırma zamanı U.İnalovun 2016-cı ildən RF-də federal axtarışda olması məlum olmuşdur.

20 iyun tarixində Sankt-Peterburq-Gəncə reysi ilə ölkəyə gələn Gəncə şəhər sakini 1962-ci il təvəllüdlü Həsənov Fizuli Vəli oğlunun pasport nəzarətinə təqdim etdiyi pasportun qardaşı Həsənov Nizami Vəli oğluna məxsus olması aşkar edilmişdir.

25 iyun tarixində Dubay-Bakı-Milan reysi ilə tranzit uçan Şri-Lanka vətəndaşı 1996-cı il təvəllüdlü Vijayaseelan Tanjeevanın İtaliyaya məxsus yaşayış kartının saxtalaşdırılması aşkar olunmuşdur.

26 iyun tarixində Bakı-Moskva-Vyana reysi ilə tranzit uçan İraq vətəndaşı 1980-ci il təvəllüdlü Jaafar Ammar Musa Jaafarın Avstriyaya məxsus yaşayış kartının saxta olması aşkarlanmışdır.

26 iyun tarixində Bağdad-Bakı reysi ilə gələn İraq vətəndaşı 1999-cu il təvəllüdlü Al Saeed Muhammad Jawad Camalın pasportundakı İran vizasında fotoşəkilin özgəsinə məxsus olması müəyyən edilmişdir.

30 iyun tarixində İstanbul-Bakı reysi ilə gələn Bolqarıstan vətəndaşı 1973-cü il təvəllüdlü Dmitrov Valentin Konstantinovun pasportunun məlumat səhifəsinin dəyişdirilməsi yolu ilə saxtalaşdırılması müəyyən edilmişdir.

Saxlanılmış şəxslər barəsində müvafiq tədbirlər həyata keçirilmişdir.

***“Azərbaycan”***

# Qaçaqmalçılar tutuldular

Keçirilmiş əməliyyat tədbiri nəticəsində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən Astara rayonu ərazisində Astara şəhər sakini 1998-ci il təvəllüdlü Əhmədov İbrahim Zakir oğlu 2 kq heroin və 568 qram metofitamin ilə saxlanılmışdır.

Fakt üzrə keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Astarada narkotik vasitəni qəbul edərək sifarişçiyə çatdırmalı olan Astara şəhər sakini 1987-ci il təvəllüdlü Abdullayeva Aynur Mahir qızı saxlanılmış, narkotik vasitənin sifarişçisinin şəxsiyyəti müəyyən olunmuşdur.

Əməliyyat-axtarış tədbirinin davamı olaraq DİN-in Sumqayıt şəhər Polis İdarəsinin əməkdaşları ilə birgə Sumqayıt şəhərində narkotik vasitənin sifarişçisi, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə məşğul olduğuna görə, əvvəllər məhkum olunmuş Corat qəsəbə sakini 1966-cı il təvəllüdlü Ağayeva Xalidə İlyas qızı saxlanılmışdır.

Dövlət Sərhəd Xidmətinin istintaq və təhqiqat idarəsi tərəfindən saxlanılmış şəxslər barəsində CM-in müvafiq maddələri ilə cinayət işi başlanılmışdır, cinayətin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

* * *

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.

Son zamanlar dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin gücləndirilməsi nəticəsində qaçaqmalı ölkə ərazisinə gətirə bilməyənlər öz məqsədlərinə çatmaq üçün müxtəlif üsul və metodlara əl atırlar.

Belə ki, DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda mobil telefonun ölkə ərazisinə qanunsuz yolla dövlət sərhədinin buraxılış məntəqələrindən kənar gətirilməsinin qarşısı alınmışdır.

Eyni zamanda Gürcüstan ilə dövlət sərhədində Şəmkir sərhəd dəstəsinin xidməti ərazisində Ehram çayında 1 ədəd qara sellofana sarılmış ağ rəngli çəlləyin çayın axını ilə ərazimizə daxil olması müşahidə edilmişdir.

Sərhəd naryadı tərəfindən sudan çıxarılmış həmin çəlləkdə ümumi dəyəri təqribən 4500 manat təşkil edən 92 ədəd “X-nova” markalı mobil telefon aşkar olunmuşdur.

Fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***“Azərbaycan”***

# ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Azərbaycan dilçiliyi kafedrasının müəllimi Səbinə Vəliyevaya atası

**XANSUVAR VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları, İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Mehman Əmirəliyevə bacısı

**TƏNZİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İkram Kərimov, İbrahim Quliyev və İsaxan Vəliyev Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İkram Kərimov, İbrahim Quliyev və İsaxan Vəliyev Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının müdiri, professor Firuzə Abbasovaya anası

**MAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İkram Kərimov, İbrahim Quliyev və İsaxan Vəliyev Ağsu Rayon Məhkəməsinin sədri Tahir İsmayılova qardaşı

**ZAKİR İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8246
Sifariş 1952